AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ YANINDA
İÇƏRİŞƏHƏR
DÖVLƏT TARİX-MEMARLIQ
QORUĞU İDARƏSİ

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında
"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
Elmi-Mədəni Mərkəz**

# ŞİRVANŞAHLAR SARAYI:
# TARİX, HƏQİQƏTLƏR, MÜLAHİZƏLƏR

***Elmi-praktik konfrans***
***(Tezislər toplusu)***

**«Elm və təhsil»**
**Bakı – 2015**

**Elmi redaktor:** **Vəfa Quliyeva**
*Tarix elmləri doktoru*

**Rəyçi:** **Kamil İbrahimov**
***tarix elmləri doktoru, professor***

**İşçi qrup:** **Mikayıl Nəcəfov**

**İradə Musayeva**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Qənirə Pirquliyeva**
*Tarix üzrə fəlsəfə doktoru*

**Sevil Məmmədova**

**Həcər Alxasova**

**Nərmin Alıyeva**

**Şirvanşahlar sarayı: tarix, həqiqətlər, mülahizələr**
(*elmi-praktik konfrans).*
*Tezislər toplusu. Bakı, "Elm və təhsil", 2015, 80 səh.*

İSBN 978-9952-8176-2-1

© «Elm və təhsil», 2015

**Cəfər Qiyasi**
**AMEA-nın müxbir üzvü,**
**arxeologiya elmləri doktoru, professor**

# DİVANXANA – ŞİRVANŞAHLARIN SARAY KÖŞKÜ

İslam ölkələrinin memarlıq tarixində saraylar dağıntılara daha çox uğrayan binalar olmuşdur. Hər bir işğalçı özünün qələbə təntənəsini çox vaxt məğlub etdiyi hökmdarın sarayını uçurmaqla başlayırdı. Hakimiyyətdən getmiş sülalələrin sarayları isə baxımsızlıqdan və insan biganəliyindən yavaş-yavaş dağılaraq yox olurdu. Ona görə bu gün ərəb ölkələrindən Orta Asiyayaycan geniş ərazidə əski saray və qəsr komplekslərinin ancaq xarabalıqlarına tuş gəlinir. İslam dünyasında salamat qalan saray binalarının çoxunun tarixi XVII-XVIII əsrlərdən qədimə getmir. Yalnız İspaniyada qalmış orta əsr ərəb memarlığının şah əsərlərindən biri sayılan Əl-Həmra (XIV əsr) və İstanbuldakı Çinili Köşk (XV əsr) sarayları bu baxımdan istisna təşkil edir.

Bakıda 1863-cü ildə cəmi iki gün olmuş alman alimi E.Kempfer saray kompleksindəki köşkü «Divanxana» adı ilə belə öymüşdür: «Divanxana xüsusi heyrət doğurur… Bu bina bir yandan özümlü formaları və memarlığı ilə seçilir, o biri yandan bütün saray ansamblı üçün əla bəzəkdir». Sonrakı illərdə rus şərqşünasları və səyyahlar da Şirvan memarlığının bu şah əsərini «Divanxana» adı ilə tanıtmışlar. Gəlmələr bu adı şübhəsiz ki, yerli bələdçilər və mütəxəssislərdən almışlar. Ancaq, təəssüflər olsun ki, yerli qaynaqlarda bu nadir abidə haqqında nəinki bir bilgiyə, hətta onun adına belə hələlik tuş gəlinməmişdir.

Divanxana öz adı ilə dövrümüzə gəlib çatsa da bəzi araşdırıcılarda onun təyinatını dəqiqləşdirməklə bağlı şübhələr yaranmışdır. Sovetlər dönəmində Divanxananı ilk kərə geniş araşdırıb onun mükəmməl ölçü cizgilərini hazırlayan memarlar

– S.Dadaşov və M.Hüseynov 1938-ci ildə Moskvada nəşr etdirdikləri «Bakıda Azərbaycanın memarlıq abidələri» kitabında Divanxananın memarlıq şərhini verəndən sonra belə bir qənaətə gəlmişdilər: «Hesab etmək gərəkir ki, bu binanın təyinatı hələlik aydınlaşdırılmamış qalmaqdadır». Onlar biraz sonra «Divanxana dövlət şurasının – divanın iclasları üçün xidmət göstərirmiş» fikrinə gəlmiş, Divanxananı qəbul salonu hesab etmişlər. Şirvanşahlar sarayı kompleksində arxeoloji qazıntılar aparmış V.N.Leviatov «Bu gözəl tikilinin təyinatı bəlli deyil» fikrində olmuşdur.

Son dərəcə açıq, sərbəst və fəzalı kompozisiyası olan Divanxana bütün görkəmi ilə dünyəvi xarakterli binadır. Bu özəlliyi ilə o, qapalı quruluşlu, kütləsəl, dini və xatirə tikililərindən kəskin fərqlənir. Azərbaycanın orta əsr memarlığında sütunlu eyvanı olan yığcam quruluşlu saray binaları Elxanlılar dönəmindən (1256-1353) bəllidir. Arxeoloqlar bu tip saray binasının plan quruluşunu Cənubi Azərbaycanın Təxti Süleyman şəhər yerində üzə çıxarmışlar. Arqun xanın (1284-1291) tikdirdiyi həmin saray binası dörd sütunlu dərin eyvanı ilə şəhər mərkəzindəki təbii gölə yönəlmişdir. Əldə olan qrafik materiallar Şənb Qazan kompleksindəki Adiliyyə köşkü və Qazan xanın (1295-1304) yay iqamətgahı olan Ucanda tikdirdiyi saray köşkünün də ön fasadlarının dörd sütunlu – üç tağlı quruluşda olduqlarını göstərir. Divanxana binasının saray köşkü olduğunu təsdiqləyən özəlliklərdən biri onun eyvanında vaxtilə yaşayış evləri üçün səciyyəvi olan məhəccərlərin – qorxuluqların qurulması faktıdır. XIX əsrin təsviri sənədlərindən – rəsmlərdən və fotolardan görünür ki, sütunlar arasında quraşdırılmış məhəccərlər düzbucaqlı daş tavalarda yonulmuş şəbəkələrin dikinə düzülməsi yolu ilə yığılmışdı. Bu şəbəkə məhəccərlərdən indiyə ancaq eyvan sütunlarındakı izlər qalmışdır. Fotolardan bəlli olur ki, həmin daş məhəccərlər XIX yüzilin sonlarında artıq dağılmağa üz qoymuşdu. Onların sonrakı talei haqqında əldə heç bir məlumat yoxdur. Ancaq A.Pavlinovun ölçü cizgiləri, rus rəssamı A.Konun (XIX əsr) qravürü, Rusiya çarı III Aleksandrın 1888-ci ildə Bakıya gəlişinə həsr olunmuş tablo və qədim

fotolar bu maraqlı ayrıntıların ölçüləri və ornamental biçimləri haqqında aydın təsəvvür yaradır. Mərkəzi səkkizbucaqlı salonu beş yandan dövrələyən incə sütunlu, şəbəkə məhəccərli və sivri sıratağlı eyvan Divanxana köşkünə saraylara xas təntənəli və fəzalı görünüş verirdi. Qeyd edilməlidir ki, Hindistanda kürsülük üzərinə qaldırılmış saray köşklərində də şəbəkə məhəccərlər işlədilirdi. Bəzək sistemi altı və səkkizbucaqlılardan ibarət olan bu məhəccərlər Divanxanada olduğu kimi sütunlar arasında quraşdırılırdı.

Azərbaycanın da tərkibində olduğu Ön Asiya bölgəsinin saray memarlığında səkkizbucaqlı salonu olan köşklər zaman və məkanca geniş yayılmışdır. Bakıdakı Şirvanşahlar sarayı binasının özəyi XII yüzildə tikilmiş səkkizbucaqlı salondur. Təxti Süleymanda tikintisi XIII ərə düşən iki səkkiz bucaqlı köşk iri saray kompleksinin tərkibində olmuşdur. Məşhur Həşt Behişt sarayının da mərkəzi salonu səkkizbucaqlıdır. Bu gələnəyin Qacarlar dövrünəcən davam etməsinin ən parlaq örnəyi Tehranın Qacar Qəsri sarayındakı yay köşküdür. Səkkizbucaqlı planı, açıq dövrələmə eyvanı və salonunun prizmatik kürsülük üzərinə qaldırılması baxımından həmin köşk Bakı Divanxana köşkünə ən yaxın olan abidədir. Belə böyük bənzərlik bölgədə saray köşkü gələnəcəklərinin nə qədər davamlı və yaşarı olduğunun göstəricisidir. Hindistanın Aqra şəhərində Divani-xas köşkünün yanında olan Şah Bürc köşkü (XVII əsr) də altıbucaqlı planı, beşyanlı sütunlu eyvanı və mərkəzi salonu üzərində ucalan günbəzi ilə Bakının Divanxana köşkünə çox bənzəyir. Şah Bürcdə Moğol imperatoru ali əyanlarla, oğulları ilə, eləcə də öz bioqrafı Qəzvini ilə gizli məsləhətləşmələr keçirirmiş.

Divanxana salonunda divarların alt bölümü yaxşı yonulmuş daş hörgü kütləsinə görə biraz batıq olub yarımyonulu daşlarla üzlənmişdir. Bu durum həmin səthlərin vaxtilə kaşı bəzəyi ilə örtüldüyünün parlaq göstəricisidir. Çox önəmli funksiya daşıdığından Divanxananın bədii memarlıq həllində qarşıya qoyulan tələb də saray kömpleksindəki başqa binalara görə daha yüksək olmuşdur.

Şübhə yoxdur ki, Divanxana köşkünün, özəlliklə onun salonunun interyerləri də çox təntənəli bəzədilmişdi və onların tərtibatında çoxrəngli kaşı mozaiki önəmli rol oynamışdır. Şirvanşahlar saray ansabmlının hər baxımdan zirvəsində olan Divanxana düzgün olaraq orta əsr Azərbaycan memarlığının şah əsərlərindən biri sayılır. Bədr Şirvani şah imarətini təsvir edərkən bu sənət möcüzəsini yaradan memarın – bənnanın da əməyini dəyərləndirməyi unutmamışdır. Şairə görə

Bənna bu binada qoyduğu hər kərpicin, daşın müqabilində
Mükafatdan başqa hədsiz savab da qazanar.

**Cəfər Qiyasi**
**AMEA-nın müxbir üzvü,**
**arxeologiya elmləri doktoru, professor**

# ŞAH TÜRBƏSİNİN MEDALYON KİTABƏLƏRİ

Şirvanşahlar sarayı kompleksinin tərkibində olan binaların memarlıq obrazının bədii ifadəliyində baştağlar önəmli rol oynayır. Şah türbəsi (1435-ci il) və Divanxananın (XV əsr) baştağları, eləcə də Ulu Rəcəb (Şərq) qapısı (1585) Şirvan bölgəsində həcm-məkan kompozisiyası ümumi prinsiplərə dayanan özəl baştağ tipinin formalaşdığını göstərir. Düzbucaqlı çərçivəyə alınmış bu baştağların dərin tağçaları yuxarıda sivri və dilimli yarımgünbəzlə qapalıdır. Türbə və Divanxananın baştağlarının timpanları daşda böyük ustalıqla işlənmiş incə bitkisəl ornamentlərlə örtülmüşdür. Ulu Rəcəb qapısının üst bölümü biraz sadə işlənmişdir.

Hər üç baştağın timpanında iki medalyon simmetrik yerləşdirilmişdir. Türbədəki medalyonlar damla şəklində – badamvarı biçimdə olduğu halda Divanxanada səkkizbucaqlı, Ulu Rəcəb qapısında isə dairəvi biçimlidir. Səkkizbucaqlı medalyonlar həndəsi, dairəvi medalyonlar mərkəz simmetriyalı bitkisəl ornamentlərlə doldurulmuşdur. Türbə timpanındakı medalyonlarda, onlardan fərqli olaraq epiqrafik ornamentlər yerləşdirilmişdir.

Şah türbəsinin baştağının memarlıq bəzəyində epiqrafika – inşaat kitabələri önəmli yer tutur. Giriş qapısının çərçivəsinin sivri ucu içində kufi xətti ilə altı «Əli» yazılmış altıbucaqlıya çevrilir. Onun yuxarısında iki sətirli iri düzbucaqlı kitabədə «… bu işıqlı türbəni öz anası və oğlu üçün tikməyi» hicri 839-cu – miladi 1435-ci ildə Şirvanşah I Xəlilullahın əmr etdiyi bildirilir. Nəsx elementli süls xətti ilə yazılmış bu kitabənin çox təntənəli ritmi var. Baştağ kompozisiyasını yuxarıda tamamlayan dini mətnli

kitabə daha iri ölçülü və daha təntənəlidir. Biçiminə və işlənmə tərzinə görə kitabədən daha çox zərgərlik əsərinə – şəbəkəli iri sırğaya bənzəyən iki medalyon bu böyük kitabədən asılmış kimi görünür. Badamvarı biçimi olan bu kitabələrin hər ikisinin mətni eynidir. Ancaq onlardan güneydəki çox az zədəyə uğradığı və yaxşı qaldığı halda, quzeydəki çox ciddi aşınıb pozulmuşdur. O biri kitabələrlə müqayisədə ölçü kiçikliyinə baxmayaraq medalyonlar türbə baştağının ən gözəçarpan ayrıntılarındandır. Bu qoşa medalyon böyük ölçü uyarlığı olan baştağın simmetrik quruluşunu da daha qabarıq gözə çarpdırır. Medalyonlar XIX yüzildən başlayaraq mütəxəssislərin diqqətini çəkməkdədir. Hələ özünün 1835-1836-cı illərin yol qeydlərində rus P.Zablotski bu kitabə – naxışı xatırlamış, ancaq yanlış olaraq onun kufi xəttində yazıldığını bildirmişdir. Halbuki Şirvanşahlar sarayı kompleksində yalnız Divanxana baştağının yan yelənlərində kufi xətli yazısı olan altıbucaqlı iki medalyon qoyulmuşdur. Həmin yüzildə Moskva Lazarev İnstitutunun professoru – şərqşünas M.Attaya badamvarı medalyonla tanış olmuşdur. Şah türbəsinin ölçü cizgilərini 1893-cü ildə nəşr etdirmiş memarlıq akademiki A.M.Pavlinov türbənin baştağından bəhs edərkən yazmışdır: «Tağçanın yanlarında da bütünlüklə oxuna bilinməyən yazılı iki medalyon var ki, Attaya onlarda yalnız «Əli» sözünü ayırd edə bilmişdir».

Şah türbəsi haqqındakı bir yazıda memar adının kitabədə aşkar edilməsinin daha absurd şərhinə tuş gəlmişəm. Həmin yazı müəllifinin sayaqlamasına görə, guya bir memar qadın baştağın naxışlarını yerində öyrənərkən külək saçlarını dağıtmış və o, güzgüyə baxaraq saçlarını sahmana salmaq istəyəndə «gizli yazıların» əksini güzgüdə görərək memarın adını kəşf etmişdir. Yanlış oxunuş hətta L.Bretanitski kimi böyük araşdırıcını da çaşdırmışdır. Onun aşağıdakı fikrində bu aydın görünür: «Bakıda XV əsrdə tikilmiş saray ansamblı binalarının heç birində memarların adı saxlanılmamışdır. Yalnız türbənin inşaatçısının adı baştağın timpanındakı kitabədə qalmışdır ki, onu da səylə medalyonların ornamental yazı hörməsində maskalamışdır».

L.Bretanitsikinin Ə.Salamzadə ilə birlikdə yazdıqları orta əsr memarlarına həsr olunmuş bir məqalədə isə «Bakıda Şirvanşahlar sarayı ansamblındakı türbədə memarın adını gizli şəkildə yazması halına» təsadüf edildiyi vurğulanmışdır. Gerçəkdə Azərbaycanın heç bir memarlıq abidəsində memar və ya ustanın adı örtbasdır edilməmişdir. Şah türbəsinin kitabə medalyonunda da gizlədilmiş bir şey yoxdur. Onun ən böyük sirri oxunuşunun çətin olmasıdır. Bu kitabədə bir mətn dörd dəfə (hər medalyonda iki dəfə olmaqla) təkrar olunur. Hansı memar o qədər də iri olmayan bir binada öz adını dörd dəfə yazmağa cəsarət edərdi. Buna orta əsr memarının yüksək əxlaqı da yol verməzdi.

**Şahin Fərzəliyev**
**tarix üzrə elmlər doktoru, professor**

# BİR ƏSRİN ÜÇ ŞİRVANŞAHI HAQQINDA BƏZİ QEYDLƏR

Ölkəmizin tarixi ərazisində yaranmış dövlətlərin biri də təxminən min il yaşamış Şirvanşahlar dövlətidir. Məlum olduğu kimi, dövlət sinifli cəmiyyətdə əsas siyasi hakimiyyət alətidir. Dövlət yaranarkən onun funksiyaları da müəyyənləşir. Orta əsrlərdə dövlətin idarəçilik forması mütləq monarxiya olmuşdur.

Deməк, XV əsr. Bu əsrdə Azərbaycanda yaranmış üç dövlət. Tariximizlə əlaqədar XV əsrin əhatə etdiyi dövr Azərbaycanda üç feodal dövlətin – Qaraqoyunlu, Ağqoyunlu və Şirvanşahlar dövlətlərinin fəaliyyətdə olmaları ilə səciyyələnir. Mövzu ilə əlaqədar bir sıra ölkə tədqiqatçıları tərəfindən fikir və mülahizələr söylənilmiş, həmçinin məqalələr yazılmışdırsa da, bunun hələ kifayət olmadığı zənnindəyəm. Əlamətdardır ki, göstərilən dövrdə Azərbaycanın ümumi vəziyyətinə müxtəsər nəzər salsaq, görürük ki, ölkədə o zaman iki böyük dövlət (biri digərni əvəz etməklə) – Qaraqoyunlu və Ağqoyunlu dövlətləri yaranmış və süquta uğramış, Şirvanşahlar dövləti isə əvvəlki əsrlərdə olduğu kimi öz müstəqilliyini (müəyyən vassal asılılığı olsa belə) qoruyub saxlamağa cəhd etmiş və buna nail olmuşdur. Şirvanşahlar dövlətinin ərazi və əhali cəhətdən əvvəlki iki dövlətdən kiçik olmasına baxmayaraq bu kiçik dövlət öz müdrik padşahlarının ağıllı və uzaqgörən siyasəti sayəsində varlıq və yoxluq təhlükəsindən "sağ-salamat" çıxmağı bacardı və hələ yarım əsrədək də müxtəlif təzyiqlərə sinə gərdi. Şirvan artıq 9 əsrdən çox idi ki, şirvanşahlar tərəfindən idarə olunur və özünəxas müstəqil siyasət yeridirdi. Dərbənd şirvanşahlarının uğurla həyata keçirdikləri daxili və xarici siyasət nəticəsində Şirvanda qonşu Azərbaycan dövlətlərindən fərqli olaraq sülalə daxili mübarizələr yox idi.

Qeyd etmək lazımdır ki, XV əsr Azərbaycanının bu üç dövləti məzmun və mahiyyət etibarilə bir olmuşlarsa da , onların arasında formaca bəzi sahələrdə müəyyən fərqlər var idi, yəni cənubdakı Qaraqoyunlu və Ağqoyunlu dövlətləri ilə şimaldakı Şirvanşahların dövlət quruluşları arasında mövcud olan müxtəliflik nəzəri cəlb edən xüsusiyyətlərdəndir. Şirvanın dövlət aparatında oturaq feodal əyanlar böyük nüfuza malik idilərsə, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində köçəri və yarımköçəri hərbçi əyanlar mühüm rol oynayırdılar.

İndi məqaləmizin məzmununa uyğun olaraq üç şirvanşah haqqında müxtəsər məlumat verək istərdik.

1. <u>İbrahim, yaxud Əmir İbrahim Dərbəndi, ya da Şeyx İbrahim.</u>

Azərbaycanın şimalındakı Şirvanşahlar dövləti üzərində də ciddi təhlükə görünməyə başladı. Belə bir şəraitdə, dövrünün görkəmli dövlət xadimi olan I İbrahim qüvvələr nisbətini düzgün qiymətləndirdi və Sultan Əhmədin əksinə olaraq Osmanlıların deyil, Teymurilərin tərəfini tutdu. Əmir Teymurun vəfatından sonra (1405) Azərbaycanda hakim olan Qara Yusif Qaraqoyunlu ilə Şirvanşah I İbrahimin münasibəti ilk vaxtlarda o qədər də yaxşı olmamışdır, lakin sonradan onların arasında ikitərəfli razılaşma yaranmış, Şirvanşah Şirvanı yenə də müstəqil idarə etmişsə də, Qaraqoyunlu hökmdarından asılı vəziyyətdə olmuşdur. Amma, Teymurdan sonra Xorasan taxt-tacına sahiblənən oğlu Şahrux bütüb azərbaycanı öz əlinə almaq istəyir və bu məqsədini həyata keçirməyə hazırlaşırdı.

<u>2. I Xəlilullah, Sultan Xəlil, Əmir Xəlilullah.</u>

1417- ci ildə vəfat edən I İbrahimdən sonra taxta əyləşən oğlu Əmir Xəlilullah da atası kimi Teymurilərlə dostluq münasibətini qoruyub saxlayırdı. O, 1421-1422 coildə hətta Şahruxla qohum da oldu. [Şirvanşah I Xəlilullah Əmir Teymurun oğlu Əbubəkr Mirzənin qızını almışdır. “Mətləüs- sə deyn” əsərinin məlumatına görə həmin Teymuri şahzadəsi Qara Yusiflə olan döyüşdə öldürüldükdən sonra onun xanədanından bir neçə kəniz, o cümlədən kiçik qızı əsir götürülmüşdü. Qeyd olunmalıdır ki, ümumiyyətlə

bütün Şirvan şahları, o cümlədən I Xəlilullah da, əgər bugünki istilahla desək daim böyük hökmdarla "balanslaşdırılmış siyasət" yürüdür, onların heç birini özünə düşmən etmək istəmirdi, çünki kiçik bir dövlətin hökmdarı öz hakimiyyətini qoruyub saxlamaq naminə, şübhəsiz ki, məhz belə davranışa malik olmalı idi. Əgər başqa cür olsaydı, kiçik bir ərazinin kiçik bir dövləti uzun əsrlər boyu hakimiyyətdə bərqərar ola bilməzdi.

3.Şirvanşah Fərrux Yəsar İbn Xəlilullah.

Fərrux Yəsar hakimiyyətinin ilk illərində diplomatik münasibətlər yaratmaq məqsədilə bir sıra ölkələrə elçilər göndərdi. O da atası kimi "qüdrətli türk sultanı"II Məhəmməd Fateh ilə ittifaqda olmağa çalışırdı. S.Aşurbəyli yazır: "Mənbələrin məlumatına görə 1465- ci ildə Şirvanşah Fərrux Yəsarın elçisi Həsən bəy Moskvaya gəlmişdir. 1466- cı ildə çar III İvan buna cavab olaraq Vasili Papinin başçılığı altında Şirvan şahına qiymətli hədiyyələrlə birlikdə həmin ölkəyə bir səfarət heyəti göndərmişdi. Səfarətin məqsədi, ticarətlə yanaşı, Moskva dövləti ilə Şirvan arasında Qızıl Ordaya qarşı ittifaq yaratmaq idi.XV əsr Şərq dövlətlərində hökmdarlar adətən öz siyasi fəaliyyətləri barədə bir- birlərinə məlumat verir, bir növ hesabat təqdim edir, biri digərini öz fəthləri ilə qorxudur, təkəbbür nümayiş edirirdilər. Onlar belə hərəkət etməklə bəzən də işlədikləri günahları müəyyən mənada pərdələmək və özlərinə bəraət qazandırmaq məqsədi güdürdülər.

Beləliklə, qeyd etmək olar ki, bütün XV əsr boyu Şirvanşahlar öz qüdrətli qonşuları ilə müntəzəm dostluq münasibətləri yaratmağa çalışmış, tərəflər bir-birlərinə elçi heyətləri yollamış, qarşılıqlı diplomatik təmaslar davam etmişdir.

**Tarix Dostiyev**
**tarix elmləri doktoru, professor**

# İSLAM DÖVRÜ MÜLKİ MONUMENTAL MEMARLIĞI AZƏRBAYCANIN ARXEOLOJİ İRSİNDƏ

Birgə yaşayış tərzinin hakim olduğu şəhərlər qədim dövrlərdən istehsal, mədəniyyət və intellektual potensalın cəmləşdiyi, cəmiyyətin sosial-iqtisadi, siyasi və mədəni inkişafında böyük rol oynayan və onun tərəqqisinə təkan verən mərkəzlər idi. Orta əsrlərdə Azərbaycanda urbanizasiya prosesi yüksək səviyyəyə çatmış, bu isə şəhərsalma fəaliyyətinin genişlənməsində öz təcəssümünü tapmışdır.

Orta əsr Azərbaycan şəhərlərinin simasını müsəlman Şərq memarlığı üçün səciyyəvi olan ictimai və dini binalar – məscidlər, minarələr, mədrəsələr, köşk-qəsrlər, saray kompleksləri, karvansaralar, örtülü bazarlar, ictimai hamamlar və s. müəyyənləşdirirdi. İslamın yayılması ilə Azərbaycan şəhərlərinin tikintilərinin tipologiyası yeni tip binalarla zənginləşirdi. Azərbaycan şəhərlərində də, Şərqin digər müsəlman ölkələrində olduğu kimi, monumental tikililərin yeni tipləri: məhəllə və Came məscidləri, minarələr, mədrəsələr və digər ictimai-dini binalar ucaldılırdı. Mülki və dini binaların tikintisində çatma tağlar, tağ-tavanlar, günbəzlər, çatma tağlı portallar, şəbəkəli pəncərələr, stalaktit karnizlər kimi konstruktiv elementlərdən geniş istifadə olunurdu .

Hazırkı məruzədə orta əsr Azərbaycan şəhərlərinin ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış, erkən və klassik islam dönəmlərinə aid olunan mülki monumental memarlıq abidələrini səciyyələndirməyə cəhd edəcəyik.

Arxeoloji qazıntılar geniş miqyasda aparılmadığından VIII-X əsrlərin tikililəri, eləcə də sonrakı dövrlərin tikililəri əksər hallarda komplekslər şəklində deyil, tək-tək üzə çıxarılmışdır. Bununla belə arxeoloji qazıntıların miqyasının məhdudluğuna

baxmayaraq üzə çıxarılmış tikinti qalıqları erkən islam dövrü memarlığının tədqiqi üçün çox qiymətli faktik materiallar olmaqla, Azərbaycan şəhərlərində inşaat texnikası və memarlığının yüksək səviyyəsindən xəbər verir.

Şirvanın mülki memarlığının maraqlı nümunələrindən biri arxeoloji qazıntılar zamanı Şamaxının VI qazıntı sahəsində üzə çıxarılıb. Arxeoloji tədqiqatlar nəticəsində ictimai təyinatlı həmin binanın bir salonu və üç otağı tədqiq olunub. Lakin divar qalıqlarının qazıntı sahəsində şimal və cənuba doğru uzanması kompleksin geniş sahəli, çoxotaqlı olduğunu təsdiqləməyə imkan vermişdir . Bina səliqə yonulmuş daşlardan əhəngli məhlulla inşa olunmuşdu. Nisbətən yaxşı mühafizə olunmuş qərb divarında 75x50x30 sm ölçüdə taxça düzəldilmişdi.

Arran memarlıq məktəbinin mülki monumental binalarının səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsində Bərdə, Gəncə, Şəmkir, Beyləqan və Dəbildə aparılmış arxeoloji qazıntıların materiallarının əhəmiyyəti olduqca böyükdür. Arran memarlıq məktəbinin səciyyəvi xüsusiyyətlərindən biri qarışıq hörgü üslubundan - bişmiş kərpic, çaydaşı və yerli ağ daşın xüsusi qayda üzrə hörgüdə işlədilməsidir. Memarlıq tariximizdə «Gəncə hörgüsü» adı ilə məlum olan hörgünün xüsusiyyəti çaydaşı ilə bişmiş kərpicin divar səthində naxış yaradan qayda əsasında birlikdə işlədilməsidir. Arran memarlıq məktəbinin digər səciyyəvi xüsusiyyəti tikililərdə hörgünün çoxrəngli olmasındadır. Məsələn, Şəmkir şəhərinin içqalasında bişmiş kərpiclə yerli ağdaş və göy rəngli çaydaşı hörgüdə xüsusi zolaqlar şəklində tətbiq edilərək açıq və tünd, soyuq və isti rənglərin növbələşməsindən alınan bədii effekt yaradır, hörgüyə xüsusi bir görkəm verir.

Şəmkir şəhər yerində IV qazıntı sahəsində üzə çıxarılmış, qəsr divarı ilə möhkəmləndirilmiş IX-X əsrlərdə fəaliyyət göstərmiş və XI əsrin əvvəllərində yangın nəticəsində sıradan çıxmış monumental binanın arxeoloji qazıntısı xüsusi maraq doğurur. Ümumi sahəsi 2000 kv.m.-dən artıq olan binanın dördbucaq biçimli, sütunlu həyəti ətrafında 10 artıq otaq yerləşirmiş. Otaqların qapısı həyətə açılırmış. Otaqlardan beşi artıq arxeoloji

qazıntılarla öyrənilib. Binanın divarlarında hörgünün alt cərgələri çaydaşından, üst cərgələr isə çiy kərpicdən hörülüb. Daş hörgüdən çiy kərpic hörgüyə keçiddə ağac qurşaqlar olubdur. Kompleksin diqqətlə öyrənilməsi binanın dam örtüyünün tağtavanlı olduğunu müəyyənləşdirməyə əsas verir.

Şamaxı, Bakı, Dərbənd, Qəbələ, Gəncə, Şəmkir, Beyləqan, Dəbil, Xaraba-Gilan və başqa şəhərlərdə aparılan qazıntılar şəhristanda, xüsusilə XI-XII əsrlərdə tikintilərin çoxluğundan, onların sıx yerləşməsindən xəbər verir. Arxeoloji qazıntılarla Dərbənddə, Şamaxıda, Bakıda, Şabranda üzə çıxarılmış ictimai-dini binaların, yaşayış evlərinin, istehkam tikililərinin qalıqları Şirvan memarlığı üçün səciyyəvi olan xüsusiyyətləri özündə əks etdirir.

Son illər Şamaxı şəhərində inşaat işləri zamanı üzə çıxarılmış monumental bina qalıqlarının Şirvanşahların saray tipli binalarından birinin qalıqları olduğu ehtimal edilir.

Ümumiyyətlə, arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış tikili qalıqları və salamat qalmış memarlıq abidələrinin tədqiqi orta əsr tikililərinin bir çox səciyyəvi ünsürlərini, onların xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir. İnşaatçılar müxtəlif tip tikililəri ucaldarkən ərazinin xüsusiyyətlərini və inşa olunacaq binanın xarakterini nəzərə almaqla öz işlərini qururdular. Tikilinin bünövrəsinin möhkəmliyinə xüsusi diqqət yetirilirdi. Təbii şəraitin imkan verdiyi ərazilərdə qayalıqlardan səmərəli istifadə olunurdu. Bunu Bakıda, İçərişəhərdə aşkarlanan tikinti qalıqları əyani nümayiş etdirir. Qayalıq olmayan ərazilərdə tikililərin bünövrəsi üçün xəndək qazılır, qaya daşlarından və ya çaydaşılarından adi palçıqla və ya əhəngli məhlulla özül qoyulurdu. Kürsülük çox vaxt bünövrə ilə vahid konstruksiya təşkil edirdi. Bir, iki, bəzən hətta üç pilləli stilobata təsadüf olunur. Kürsülük divarların dayanaqlığını artırır, xüsusilə binanın antiseysmik imkanlarını gücləndirirdi. Kürsülüyün iri daşlardan hörülməsinə üstünlük verirdilər.

**İdris Əliyev**
**tarix üzrə fəlsəfə doktoru, professor**

# НЕКОТОРЫЕ ДОКУМЕНТЫ ПО ИСТОРИИ ОХРАНЫ ПАМЯТНИКОВ БАКУ

С начала образования независимой Азербайджанской демократической республики в 1918 году представители национальной интеллигенции подняла вопрос о значении исторических памятников, необходимости их изучения и сохранения. В этом направлении были сделаны первые шаги, но в апреле 1918 года новая власть установила новый порядок в республики. На первых порах руководители от Азревкома, нуждаясь в профессиональных кадрах и специалистах, привлекали их к работе, прислушивались к мнению, если это не противоречило тогдашней большевистской идеологии или личности должностного комиссара. Значительная часть старой интеллигенции, лояльно относящиеся к новой власти или просто обманутые красивыми лозунгами большевиков, воспользовалась случаем принести пользу отечеству, и вовлекалась в различные структуры власти и новообразованные организации. Среди них были и те, кто в начале независимости стояли у истоков создания музеев, занимались решением охраны памятников. Наиболее яркими представителями этой интеллигенции были Джамалбеков, Агаев и другие, ими и был образован музей «Истиглал» независимой АДР. Позже они будут отстранены, их место займут другие, деятельность которых не менее существенна в деле охраны, изучения и популяризации памятников древности Азербайджана.

28 апреля 1920 года власть Азревкома издала декрет об образовании Народного комиссариата просвещения. Возглавил Народный комиссариат просвещения (сокращенно Наркомпрос) Д.Буниатзаде, который служил на этой

должности по май 1922 года. С тех пор все проблемы, связанные с охраной памятников, музейное дело, театр, образование и другое, что имело связь с культурой, находилось в ведении Наркомата просвещения.

24 мая 1920 года при отделе Внешкольного Образования создается «Особый» Подотдел охраны памятников старины. С момента своего создания эта структура приступает к активной деятельности. 29 мая 1920 года только, что образованный Подотдел обращается с докладной запиской в Наркомат просвещения. Ниже представленный документ, хотя и написан более 80 лет назад и сегодня является актуальным.

**Əli Rəcəbli**
**tarix elmləri doktoru, professor**

# ABBASİ CANİŞİNLƏRİ DÖNƏMİNDƏ ŞİRVANDA SİKKƏ ZƏRBİ TARİXİNDƏN

Şirvanşahlar dövlətinin xronoloji, siyasi, özəlliklə, xarici-diplomatik əlaqələri tarixinin çözələnməsində tədqiqatçılar yazılı qaynaqların, dəqiq fakt və dəlillərin nəzərə çarpacaq dərəcədə azlığı ilə qarşılaşırlar, desək, yəgin ki yanılmarıq. Nə yaxşı ki, Səfəvi ekspansiyasından sonra taxt və tacından, xəzinə, mal-dövlət, rəsmi dövlət dəftərxanası və arxivindən məhrum olan minillik Şirvanşahlar dövlətinin 800 illik permanent dövlətçilik ənənəsini müşayiət edən zəngin numizmatik irsi qalmışdır.

Zaman-zaman Şirvan hakimləri fərqli adlarla, Sasanilər dönəmində (V-VII yüzillər) "Şirvanşahlar", Ərəb Xilafətində (VIII - XI yüzillərdə) "Yəzidilər", XI - XIV yüzillərdə - "Kəsranilər", daha sonra -XIV - XVI yüzillərdə- "Dərbəndilər" kimi tanınsalar da prof. V.Minorskinin "Tarix əl-Bab" əsərinə istinadən yürütdüyü real və lakonik mühakiməsinə əsasən Şirvanşahlar dövlətinə eyni bir sülalənin - Xilafət tərəfindən Azərbaycan, "Ərminiyyə" vilayətlərinə, o sıradan, Şirvan və Arana göndərilən canişinlərdən biri - ərəb Rabiə qəbilə başçısı Yəzid bin Məzyəd əş-Şeybani və onun nəslinin- Yəzidilərin davamlı olaraq başçılıq etdiyi artıq məqbul sayılmaqdadır. "Tarix əl-Bab"-a əsasən Yəzidilər sülaləsinin müəssisi Yəzid bin Məzyəd bin Zəidə bin Abdullah bin Zəidə bin Matar bin Şurayk bin Salt, bin Kayb, bin Humam, bin Murra, bin Daykb bin Şeyban əş-Şeybanidir (prof.V.Minorski bu sülaləni Mesopotamiyada hakim olan Məzyədilər sülaləsindən fərqləndirmək məqsədilə "Yəzidilər" sülaləsi adlandırır).

Yəzidi şirvanşahların AMEA MATM NF-da saxlanılan numizmatik irsi, bu sülalənin dövlətçilik tarixində bir-iki fasiləni nəzərə almasaq, onun sikkə zərbini VIII-XVI yüzillər kəsiyində permanent olaraq davam etdiyini deməyə əsas verir. Yəzid bin

Məzyədin adına hələ 169 = 785/6-cı ildə Haruniyyədə kəsilmiş dirhəm üzərində rast gəlinir. Azərbaycan və "Ərminiyə" canişini olaraq, 183 = 799/800-cü ildə "Ərminiyyə" canişini Əli bin İsanı əvəz edən Yəzid bin Məzyəd adını Aran və "Ərminiyədə" xəlifə Harun ər-Rəşidin adından zərb olunan dirhəmlər üzərində həkk edir.

Yəzid bin Məzyədin sikkə zərbi 183-185 = 800/1-ci illərin Aran və "Ərminiyə" dirhəmləri ilə tamamlanır. Lakin 184-cü il Aran dirhəmlərində Yəzidin oğlu Əsəd bin Yəzidin və qardaşı Əhməd bin Məzyədin adlarına rast gəlinməsi göstərir ki, o, hələ sağlığında "Ərminiyə" vilayətinə sıra ilə oğlu və qardaşını öz müavinləri mislində vali təyin etmişdir.

Yəzid bin Məzyədin ölümündən və Əhməd bin Məzyədin qısa müddətli canişinliyindən sonra Əsəd bin Yəzid yenidən "Ərminiyə" canişini olaraq, 185-186 = 801/2-ci illərdə Aran və "Ərminiyə"də mis fels və gümüş dirhəmlər zərb edir, lakin 186 - 187 = 802 - 803-cü illərin Aran və "Ərminiyə" fels və dirhəmlərində artıq Əsədin qardaşı Məhəmməd bin Yəzidin adın Xəlidin dörd oğlu olmuşdur: Məhəmməd, Əli, Yəzid və Heysəm. Xəlifə Vasiq Cəzirə valisi olan Məhəmmədə atasının ölümü münasibətilə baş sağlığı verərək, ona atasının yerini tutmağı əmr edir və Tiflis əmiri İshaq bin İsmayıl ilə müharibəyə göndərir.

Xəlifə Vasiqin ölümündən sonra hakimiyyətə gələn xəlifə əl-Mütəvəkkil (847 - 861) Məhəmməd bin Xəlidi öncə əl-Babın, 242 = 856-cı ildə Azərbaycan, "Ərminiyə" və Aranın hakimi təyin etmişdir. 245 = 859-cu ildə Məhəmməd Cənzə (Gəncə) şəhərinin əsasını qoymuşdur.

Xəlifə əl-Mütəvəkkilin qətli ilə bağlı Xilafətdə baş verən qarışıqlıqlardan istifadə edən Xəlidin digər oğlu Heysəm bin Xəlid Şirvanda, qardaşı Yəzid bin Xəlid isə Ləyzanda özlərini "Şirvanşah" və "Ləyzanşah" elan edirlər. Bununla bağlı qeyd edək ki, "Şirvanşah" titulu ilə tanınan Şirvanşahlar dövlətinin yaranması, tarixi baxımdan, mövcüd ənənəyə uyğun olaraq, şirvanşah Heysəm bin Xəlid bin Yəzid bin Məzyəd əş Şeybaninin adı ilə bağlıdır. Bununla belə, şəcərə baxımından Heysəmin

babası, Yəzidilər sülaləsinin banisi Yəzid bin Məzyəd daha böyük ərazinin – Azərbaycan və iqamətgahı Bərdə olan “Ərminiyyə” vilayətlərinin – canişini olmuşdur. Odur ki, o , eyni zamanda bu ərazidə təşəkkül tapan Şirvan dövlətinin də müəssisidir desək, yəgin ki, yanılmarıq. Bu dövlətin tərkibinə Aran, Şirvan, Ləyzan, əl-Bab (Dərbənd), Tabasaran daxil idi. Sonradan görəcəyimiz kimi, Yəzidilər Şirvan dövlətinin ərazi bütövlüyü uğrunda daima müharibə aparmışlar.“Tarixi əl-Bab”a əsasən Ləyzanşah Yəzid bin Xəlidin ölümündən sonra nəvəsi .Əbu Tahir Yəzid bin Məhəmməd bin Yəzid bin Xəlid bin Yəzid bin Məzyəd əş-Şeybani (917-948) xəzərlər və ruslarla savaşlarda zəifləyən şirvanşah Əli bin Heysəmə qarşı üsyan edərək, onu öldürür və 917-ci ildə Şirvanı işğal edir. 918-ci ildə o, əl-Yəzidiyyə şəhərini bərpa edir və Ləyzanı oğlu Məhəmmədə verir. V.Minorskinin təbirincə desək, xoşbəxtlik Heysəmin evindən qardaşı Yəzidin evinə köçür. 944-cü ildə əl-Bab əmiri Əhməd bin Əbd-əl-Məlik əl-Həşimiyə qarşı qalxan şəhər əhli Əbu –Tahiri Dərbəndə dəvət edir və oğlu Əhmədi əl-Baba hakim seçir. Yəzidin ölümündən sonra (948) şirvanşah elan olunan oğlu IV Məhəmməd bir oğlu Əhmədi Ləyzana, digər oğlu Heysəmi Tabasarana təyin edir. Lakin nə Yəzidin yuxarıda adları çəkilən sələfləri ***II Məhəmməd bin Xəlid, Heysəm bin Xəlid,, III Məhəmməd bin Heysəm, Heysəm bin Məhəmməd (? - 948), Əli bin Heysəmin,*** nə özünün, nə də onun yaxın xələfləri ***IV Məhəmməd bin Yəzid (948 - 956), Əhməd bin Məhəmmədin (956 - 981)*** sikkələri məlumdur. Beləliklə, numizmatik artefaktlara əsasən, son dəfə, 217 = 832/3-cü ildə Aran gümüş dirhəmləri üzərində “imzasını” qoyan yəzidi canişini Xəlid bin Yəzid bin Məzyəd əş-Şeybanidən sonra keçən aşağı-yuxarı 140 ilə yaxın bir zaman kəsiyində irsi mülkiyyət və hakimiyyət sahibi olan Şirvanşahların numizmatikada izi qalmamışdır (belə sikkələrin olub da, lakin bizə gəlib çatmaması ehtimalı, təbii ki, istisna olunmur).

Yəzidilərin sikkə reqaliyasının istismarı tarixində müşa-hidə olunan bu “sikkəsizlik” dönəmini numizmatik fenomen kimi səciyyələndirmək düzgün olmazdı. Xilafətdə əmtəə-

pul münasibətlərinin vüsət tapdığı bir zamanda hər hansı bir vilayətin dövriyyə vasitələrindən məhrum olması ağlabatan deyil. Azərbaycan şəhərlərində xəlifələrin sikkə zərbi müntəzəm olaraq davam edirdi. Şirvan dövlətində sözü gedən "sikkəsizlik" dönəminin, daha dəqiq desək, şirvanşahların öz sikkə hüququndan istifadə etmədiklərinin səbəbi, ilk növbədə, yuxarıda qeyd olunduğu kimi, xəlifə əl-Mütəsimin dönəmində canişinlik institutunun öncə məhdudlaşdırılması, sonra isə ləğvi ilə bağlı olmuşdur. 218 = 833/4-cü ildən etibarən Mədinət Aran, "Ərminiyə", Bərdə, Ərz əl-Xəzər zərbxanalarında sikkə emissiyaları öncə xəlifə və vəliəhdlərinin adlarından, son yəzidi canişini Xəlid bin Yəzid və əl-Məmuni ləqəbi ilə tanınan son abbasi canişini əl-Həsən bin Əli əl-Bədqisidən (220 = 835) sonra isə yalnız xəlifələrin adlarından(əks tərəfi köhnə ştempellərlə zərb olunmuş Xuzeymə bin Xazimin 223 = 837/8-ci il Bəlx əl-Bəyzə dirhəmi kimi sikkələr istisna olunmaqla) kəsilirdi.

Şirvanşahlar dövlətində "sikkəsizlik" dönəminin digər bir səbəbini Quzey Azərbaycanın (Aran, Şirvan, əl-Bab) IX yüzilin 2-ci yarısında, xəlifə Mütəvəkkilin qətlindən sonra xəlifə Müntəsir (861-862), Müstəin (862-866), Mütəz (866-869), Müqtədinin (869-870) qısa müddətli hakimiyyətləri dönəmində Xilafətin siyasi-hərbi və inzibati durumunun zəifləməsi nəticəsində baş qaldıran bir sıra feodal dövlətlər (Samanilər, Tahirilər, Tulunilər və s.) kimi Xilafətdə çox önəmli hərbi rol oynayan və Güney Azərbaycanda tam sikkə və xütbə hüququna malik dövlət quran ilk türk əsilli Usruşana (Mərkəzi Asiya) əmirləri Sacilərin nüfuz dairəsinə düşməsi ilə də izah etmək olar. Azərbaycan və "Ərminiyə" hakimləri olan Sacilərin qızıl və gümüş sikkələri hər iki vilayətin mərkəzi şəhər-zərbxanalarında - Marağa, Dəbil, Bərdədə, eləcə də vilayət zərbxanalarında - "Azərbaycan", "Aran", "Ərminiyə"də zərb edilirdi. Qeyd olunduğu kimi, bu zərbxanalarda eyni zamanda xəlifə sikkəsi də kəsilirdi. Bu siyasi-inzibati və iqtisadi durum son saci əmiri Deysəm bin İbrəhimdən sonra Güney Azərbaycanda hakimiyyətə tam yiyələnən Deyləmi Salarilərinin (Müsafirilərin) dönəmində də

davam etməkdə idi. Salarilərin vassalı olaraq, Şirvanşahlar onlara xərac, bac da verirdilər. Lakin numizmatik faktlar göstərir ki, X yüzilin II yarısında son Salarilərin ordugahındakı keşməkeşlər və Azərbaycanda ağalıq uğrunda ardı-arası kəsilməyən salari-şəddadi mücadilələri Şəddadilərlə qohumluq əlaqələrində bulunan Yəzidilərə, deyəsən, öz suverenliyini bərpa etmək və bu məqsədlə öncə özəl sikkə hüququnu həyata keçirmək imkanı yaratmışdı. Ötə yandan, onu da qeyd edək ki, bu imkanı şərtləndirən amillərdən biri də X yüzilin sonlarında bütün Ön və Mərkəzi Asiyanı çulğalayan məlum "gümüş böhranı"nın başlanması olmuşdur. Məsələ ondadir ki, gümüş qıtlığı nəticəsində dövriyyəyə buraxılan aşağı əyarlı (billon) dirhəmlər dinamik inkişafda olan müsəlman dövlətlərinin dövriyyə vasitələrinə ehtiyacını artıq ödəmirdi. Məlum olduğu kimi, bu şəraitdə qızılın fəaliyyəti, sikkə metalı olaraq, xeyli fəallaşmış, billon sikkələrin dövriyyəsi isə məhdudlaşmışdı. Odur ki, öncəki nüfuzunu itirmiş dirhəm əvəzində aşağı əyarlı billon sikkələrin daxili ehtiyacı ödəmək üçün vilayət hakimləri tərəfindən zərbi məqbul və zəruri sayıla bilərdi. Bu şəraitdə öz sikkə hüququnu icra edən Şirvanşahlardan biri, Xəlid bin Yəzid əş-Şeybanidən (820 - 844) sonra sikkəsi gəlib çatan yəzidi şirvanşah Əhməd bin Məhəmmədin (956 - 981) oğlu və xələfi V Məhəmməd bin Əhməd əş-Şeybanidir

Son vaxtlar MATM-nə V Məhəmməd bin Əhmədin gümüş dirhəmi təqdim olunmuş və satın alınmışdır. Bu nadir sikkə Şirvanşahlar dövlətinin siyasi tarixinin, daha dəqiq desək, Xəlid bin Yəziddən sonra Şirvan sikkə zərbində əsr yarımlıq bir zaman kəsiyində davam edən "sikkəsizlik" dönəminin yeni səhifəsini işıqlandırır a rast gəlirik.

III Mənuçehr və gürcü şahzadəsi Tamaranın dörd oğlundan (Əhsitan, Şahanşah, Əfridun, Fərruxzad) ilk öncə Şirvan taxtına sahib olan I Əhsitan (1160-1196) qonşularla qohumluq əlaqələri yaradaraq (o, Dərbənd məliki Müzəffər bin Məhəmmədin (1126 – 1160) qızı və gürcü çarı III Georginin (1156-1184) bacısı ilə evlənmişdi), yan-yörəsini möhkəmlətmiş, Quzeydən ruslar və qipçaqların, Günbatan tərəfdən gürcülərin müdaxiləsinin qarşısını almışdı. Ötə yandan, Səlcuqilərə xərac verməklə ölkənin

əmin-amanlığına və özünün bağımsızlığına, Şirvan dövlətinin sosial-iqtisadi durumunun və mədəni həyatının çiçəklənməsinə təminat almağa nail olmuşdu. Bu siyasət onun sikkələrində də özünü büruzə verir. Şahlığının ilk çağlarında sikkələr üzərində xəlifə Müstəncidin (1161-1170) adı ilə yanaşı İraq səlcuq sultanı Arslan şahın (1161-1177), daha sonra xəlifə əl-Müstədi (1170-1180) və soltan Toğrulun (1176-1194), nəhayət xəlifə ən-Nasir (1180-1225) və soltan III Toğrulun (1176-1994) adları həkk edilirdisə, artıq şahlıq dönəminin 2-ci yarısında, XII yüzilin 80-cı illərində, simvolik islami anlam daşıyan xəlifə ən-Nasirin adı nəzərə alınmazsa, I Əxsitan müstəqil hakim olaraq, "şirvanşah və əzəmətli məlik" titulları ilə öz sikkələrini zərb edirdi. I Əhsitanın sikkə zərbi hələ X yüzilin sonlarında şirvanşah V Məhəmməd bin Əhmədin dönəmində başlanan gümüş böhranının ikinci mərhələsinə, billon sikkələrin gümüş suyuna tutulması ilə xarakterikdir. I Əhsitanın sikkə zərbi hələ X yüzilin sonlarında şirvanşah V Məhəmməd bin Əhmədin dönəmində başlanan gümüş böhranının ikinci mərhələsinə, billon sikkələrin gümüş suyuna tutulması ilə xarakterikdir.

Şamaxı zəlzələsində ailəsini itirən və 1196/7-ci ildə dünyasını dəyişən I Əhsitandan sonra Şirvan taxtına qardaşı Şahanşah bin III Mənuçehr sahib oldu. Şahanşah, deyəsən, gümüş suyuna tutulmuş sikkə kəsən sonuncu şirvanşah olmuşdur. I Fəriburzun oğlu Mənuçehrin adından xəlifə əl-Mustəzhir-billahın (1094-1118) və səlcuq soltanı Məhəmmədin (1105-1117) adları ilə kəsilmiş aşağı əyarlı gümüş sikkələrdən göründüyü kimi, atasının ölümündən sonra Şirvan taxt-tacına II Mənuçehr (1096-1106) sahib olmuşdur.

"Tarix əl-Bab"-a əsasən, I Fəriburzu Şirvanşahlar taxtında oğlu Əfridun (1106-1120) əvəz etmişdir. Əfridunun isə sikkə kəsib-kəsmədiyi bəlli deyil: belə sikkələr aşkarlanmamışdır. Lakin oğlu III Mənuçehrin çoxsaylı sikkələrində onun adı نوديرفا رهچونم نب = "Əfridunun oğlu Mənuçehr" kimi həkk olunmuşdur

Şirvanşah Fərrux Yəsarın hakimiyyətə gəlişi Şirvan dövlətinin sikkə işində vacib dəyişikliklərlə əlamətdar oldu. Uzun fasilədən sonra Şirvanın ənənəvi suveren zərbi bərpa olundu, sikkə istehsalı isə birinci paytaxt Şamaxı zərbxanasında mərkəzləşdirildi.

Şirvanşah I Fərrux Yəsardan sonra, Şirvan taxtına sahib olan son şirvanşahlar haqqında bilgi verən Münəccimbaşıya əsasən, I Fərrux Yəsarın böyük oğlu Bəhram bəy şirvanşah elan olunmuş və bir illik hakimiyyətdən sonra 907 = 1501/2-ci ildə öz əcəli ilə ölmüşdür. Onun bizə məlum olan yeganə gümüş təngəsi şəxsi kolleksiyada saxlanılır. 930 = 1524-cü ildə II Şeyx İbrəhimin ölümündən sonra şah elan olunan və hələ atasının dönəmində səfəvi I İsmayılın qızı Pərixanla evlənən şahın böyük oğlu II Xəlilullah ilə Səfəvi sarayı arasında yaranmış sıcak əlaqələr elə həmin il şahın qaytanası I İsmayılın ölümündən sonra taxta çıxan oğlu I Təhmasibin dönəmində soyuq münasibətlə əvəzləndi. Şirvanşahın Səfəvilərə qarşı konfrantasiyada bulunan Gilanın Biye-Pəs vilayətinin hakimi Əmirə Dübacə sığınacaq verməsi ilə bu münasibət neqativ xarakter daşıyaraq, nəticə etibarilə Şirvan dövlətinin gələcək süqutunda məşum rol oynadı.

II Xəlilullahdan sonra şah elan olunan II Fərrux Yəsarın 15 yaşlı oğlu Şahruxun hakimiyyət illəri (1535-1539) daxili çətinliklər və ixtişaşlarla, əhalinin ağır sosial durumu və xalq hərəkati ilə səciyyəvidir. Bu durum Pərixan xanımın açıq və gizli antişirvan fəaliyyəti nəticəsində daha da ağırlaşdı və qardaşı, səfəvi şahı I Təhmasibin (1524-1576) Şirvan dövləti haqqında ekspansiv niyyətini daha da reallaşdırdı. I Təhmasibin qardaşı Əlqas Mirzənin başçılıq etdiyi səfəvi qoşununun uzun müddət (9 aya qədər) Bigord qalasında mühasirədə saxladığı və bütün məhrumiyyətlərə rəğmən, qəhrəmancasına müdafiə olunan şirvanşah Şahrux və şirvanlılar I Təhmasibin riyakar vədlərinə inanaraq, təslim oldular və qətliama məruz qaldılar. Əsir aparılan şirvanşah Şahrux bir qədər sonra I Təhmasibin əmri ilə edam edildi və minillik Şirvan dövlətinin ulduzu söndü.

Beləliklə, yüzillər ərzində daxili keşməkeşlər və çoxsaylı xarici hərbi müdaxilələrlə üzləşən, daha güclü dövlətlərin basqısına məruz qalaraq, zaman-zaman bağımsızlığından məhrum olan Şirvanşahlar bütün çətinliklərə rəğmən permanent dövlətçilik ənənələrini davam etdirmiş, XVI yüzilin ikinci yarısında yeni və qüdrətli Azərbaycan Səfəvilər imperiyasının tərkibinə daxil edildikdən sonra süqut etmişdir.

**Mehmet Rıhtım**
**Qafqaz Universitetinin professoru,**
**Qafqaz Elmi-tədqiqat İnstitunun direktoru**

# SEYİD YƏHYA ŞİRVANİNİN XANƏGAHI VƏ TÜRBƏSİ

Təsəvvüf müsəlman dünyasında meydana çıxmış ən önəmli fikri-fəlsəfi və mədəni müəssisələrdən biridir. XII əsrdən etibarən təriqətlər adı altında təşkilatlanan sufi qrupları müsəlman aləmində geniş yayılmışlar. Sufiliyin təşəkkül tapdığı mühüm tarixi mərkəzlərdən biri də Azərbaycan coğrafiyası olmuşdur. Burada doğulan və yayılan Sührəverdiyyə, Səfəviyyə, Xəlvətiyyə təriqətləri və Əxilik, Hürufilik kimi cərəyanlar təsəvvüf tarixinin ən önəmli məktəblərindən olmuşdur.

Sufi təliminin öyrədildiyi və fəaliyyət mərkəzi olaraq qəbul edilən məkanlar böyüklük və fəaliyyət sahələrinə görə dərgah, zaviyə, təkkə, xangah (xanəgah), ribat, asitanə kimi adlarla anılır. Şeyx ətrafında dərvişlərin toplandığı balaca tikililərə təkyə, tənha yerlərdəki kiçik otaqdan ibarət inziva yerlərinə zaviyə, mərkəzi böyük məkanlara da xangah, dərgah, asitanə deyilmişdir. "Xanəgah" (xangah) ümumiyyətlə bir təriqətə aid təkkələrin bağlı olduğu mərkəz təkkəyə deyilir. Şeyxin ailəsi ilə birlikdə qaldığı evi, ümumiyyətlə, təkkəyə bitişik olurdu. Əvvəllər bir otaqdan ibarət olan təkkələr zaman keçdikcə həcm və memarlıq baxımından inkişaf edərək çoxlu binalar ilə genişləndi. Mükəmməl quruluşlu xanəgahlarda səmaxana, xəlvətxana, hücrələr-dərviş otaqları, anbar-mətbəx, qəhvəxana ocağı, hamam, məscid, axur, şeyx türbələri və s. olur. Xanəgahlar, adətən, şəhərlərdə olurdu. Bununla yanaşı, kəndlərin yaxınlığında və yaxud tənha yerlərdə də tikildiyi görülür. Pir Hüseyin xanəgahı kimi yaşayış məskənlərindən uzaqda, ətrafı hasarla çevrili xanəgahlar, əvvəllər daha çox sərhədlərdə inzibati işlər üçün tikilmiş olduğundan ribat tipli xanəgah adlanır.

Təkkələr, əsasən, təhsil və tərbiyə məkanları olub, məktəb, məscid, hətta mehmanxana vəzifəsi də daşıyırdı. Həmişə təkkədə qalan dərvişlər eyni zamanda təkkə xidmətlərini də həyata keçirirdilər. Təkkənin məsrəfləri ianə və vəqflər yolu ilə əldə olunurdu. Dərvişlər də qazandıqlarının bir qismini bağlı olduqları dərgaha bağışlayırdılar. Zikr məclislərində bəstələnmiş ilahilər oxunduğu üçün ədəbiyyat və musiqi dünyası təkkələrlə yaxından əlaqəli idi. Başqa sözlə, təkkələr, dini və ictimai funksiyalarla yanaşı, ədəbiyyat və incəsənətin mühafizə və inkişafında da mühüm rol oynamışdırlar.

Xəlvətilik XV əsrin ilk rübünə qədər əsas etibarilə mərkəzi Şamaxı olmaqla Şirvanda fəaliyyət göstərən sanki məhəlli bir təriqət idi. Ancaq bu dövrdə Şamaxıdan Bakıya gələn gənc bir sufi şeyx tərəfindən təriqət yeni bir mərhələyə qədəm qoydu. İmam Musa Kazım nəslindən, Şirvanşahlar dövlətində Nəqibül-əşraf vəzifəsində olan Seyid Bəhaəddinin oğlu Seyid Cəmaləddin Yəhya, Xəlvətilərin yeni mürşidi oldu.

Onun Bakıda yaşadığı Azərbaycan və Osmanlı qaynaqlarında təsdiqlənir. Seyid Yəhyanın Bakıda yaşadığı, xanəgahının və qəbrinin Bakıda, hasar içində olduğu məsələsində bütün mənbələr müttəfiqdir. Bakıxanov, Bakı şəhərində Seyid Yəhyaya mənsub olan məscidin yanında sovməəsi, mədrəsəsi və qəbrinin olduğunu deyir. M. Ə. Tərbiyətə görə, "Bakıda məscid, mədrəsə və xanəgah sahibi olmuşdur. Qəbri də oradadır." Bu xanəgahın kiçik bir təkkə deyil, böyük bir külliyyə olduğunu M.Nəzmi qeyd edir. Müridlərinin sayının on mindən çox, hətta, iyirmi minə yaxın olduğu da ifadə edilir. Seyidin Anadoludan gələn müridləri Bakıda yetişmişdir. Bütün bunlar onun Bakıda həqiqətən böyük bir xanəgahı olduğunu göstərməkdədir.

Yaxın dövr Azərbaycan mənbələrinə görə, qəbir Şirvanşahlar sarayı kompleksinin içərisindədir. Keyqubad məscidinin qiblə divarına bitişik olan qəbrin üzərinə, səkkiz guşəli klassik Səlcuqlu günbəz memarlığı tərzində sadə bir günbəz tikilmişdir. Bu günbəz bir neçə dəfə təmir də edilmişdir.

Bir digər xüsus, sarayın şərq girişindəki Murad qapısı deyilən tarixi tac qapının XVI əsr abidəsi olub, Osmanlı Sultanı III Murad

dövründə Bakı Osmanlılar hakimiyyətində ikən Ulu Rəcəb Baba Bakuvi adlı bir şəxs tərəfindən tikdirilmiş olmasıdır. Haqqında məlumat tapa bilmədiyimiz bu şəxsin adının əvvəlindəki "Ulu" və "Baba" ifadələri sufi şeyxləri haqqında istifadə olunan epitetlərdəndir. Bu şəxsin o dövrdə xanəgahda vəzifəli şeyx olması mümkündür.

Osmanlı ordusu tərkibində bölgəyə gələn və müşahidələrini yazan tarixçi Asafinin qeydlərinə əsasən, Şah İsmayılın Bakıya XVI əsrdə hücumu nəticəsində şəhərlə birlikdə saray və xanəgah da dağıntılara məruz qalır. III Muradın səltənəti dövründə Bakı Osmanlı idarəsinə keçincə Şirvan valisi Özdəmiroğlu Osman paşa tərəfindən yenidən abadlaşdırılır. Bu arada xanəgahın girişində, dövrün və bölgənin arxitektura xüsusiyyətlərini əks etdirən bir tac qapı bina edilir. Bu qapı hələ də salamat qalıb Murad qapısı olaraq anılır.

Şah məscidinin memarlığında bu günədək açıqlanmamış problemlərdən biri hər guşədə yer alan iki mərtəbəli kiçik hücrələrdir. Bunun, bircə izahı vardır ki, o da bu hücrələrdən balaca olanların xəlvətxana, digərlərinin isə dərs otaqları olmasıdır. Beləliklə, kiçik bir məsciddə yeddi hücrənin varlığının başqa cür izahı mümkün deyildir. Çünki Misirdəki Dəmirdaşilik xanəgahı, Kastamonudakı Seyid Əhməd Sünnəti və Amasiyadakı İlyas Amasi xanəgahı kimi çoxlu xanəgahlar bunun bir bənzəridirlər və buralarda da hücrələr məscidlə bir yerdədir. Bundan əlavə, bu hücrələrin Xəlilullah xanın ailəsinə mənsub qəbirlərin olduğu binada yerləşdirilməsi bir daha buranın xəlvətgah olduğunu təsdiqləyən xüsusiyyətlərdəndir. Xəlvət edilən məkanın qəbirlərlə bir yerdə olması da sufi ənənəsində görülən xüsuslardandır.

Burada yer alan digər məkanlar isə sarayın yaşayış binası və divanxanadır. Bu məkanın saray özəlliklərinə malik olduğunu qeyd etməliyik. Belə ki, tarixi mənbələrdən başqa I Xəlilullah xanın Bakıda yaşadığını göstərən əlamətlər də vardır. Onun zamanında burada tikilmiş abidə xarakterli memarlıq tikililəri, Xəlilullahın ailə üzvlərinin qəbirlərinin olduğu türbə, Seyid Yəhyanın I Xəlilullah xanla yaxın münasibətləri və Xəlilullahın sualına görə

əsər yazması kimi məsələlər bu dövrdə Şirvanşahların Bakıda iqamət etdiklərini göstərir.

Nəhayət, Keyqubad və Şah məscidləri, qəbirlər, məscid və qəbirlərdə yer alan hücrələr isə buranın xanəgah olduğunu təsdiqləyən tutarlı dəlillərdəndir. Digər məkanların isə saray kompleksinə daxil olduğu qənaətindəyik. Bu halda saray və xanəgahın əks tərəfdən yanaşı yerləşdiyini deyə bilərik. Şirvanşahlar dövlətinin ərazisinin və ahalisinin kəmiyyəti, Bakının da o vaxt balaca bir şəhər və müvəqqəti paytaxt olması diqqətə alındığı zaman məsələ daha asan anlaşılır.

Geridə qalan divanxana isə memari xüsusiyyətləri nəzərə alındığında bir türbə olmasının daha uyğun olduğu görülür. İçəridəki qapı üzərində möminlərə cənnət müjdəsini xəbər verən ayənin yazılmış olması da bunu təsdiqləyir. Belə bir yerdə belə bir türbə də ancaq Bakıda vəfat edən Şirvanşah Xəlilullah üçün ola bilərdi. Burada hər hansı bir cəsədə təsadüf edilməməsi də onun qəbrinin 1501-ci ildə Şah İsmayıl tərəfindən açılaraq sümüklərinin yandırılmış olması faktı ilə izah edilə bilir.

**Nərgiz Quliyeva**
**tarix elmləri doktoru, professor**

# ŞİRVAN FEODAL DÖVLƏTİNİN TARİXİ İQAMƏTGAHI OLMUŞ ŞİRVANŞAHLAR SARAYINA DAİR

VI yüzilin əvvəllərində alban Arşaqilər sülaləsinin Sasanilər tərəfindən ləğvi qədim Şirvan torpağında, Şabrançay və Gilgilçay hövzələri ərazisində «Şirvanşah» titullu hakimlərin idarə etdiyi yeni qurumun təşəkkülü üçün zəmin yaratdı.

Orta əsr ərəb müəllifləri «Şah» titulu almış hakimlər arasında Şirvanşahın (Şiryanşahın) da adını çəkmişlər.

Min il ərzində (VI-XVI əsrlər) qədim Şirvanşahlar sülaləsinin hakimiyyət sürdüyü Şirvan vilayətinə bərəkətli məhsuldar düzənliklər, gözəl otlaqları, çəmənlik və meşələri olan ovalıqlar daxil idi. Burada heyvan bəsləyir, taxıl becərirdilər. Kənd təsərrüfatı inkişaf etmişdi. Meyvə bağları var idi. Kür çayının və dənizin yaxınlığı əhalini qiymətli balıq növləri ilə təmin edirdi. Şirvan torpağı neftlə, duzla, müxtəlif faydalı qazıntılarla – qiymətli metallarla, minerallarla, gillə zəngin idi.

XII əsrin sonları və XIII əsrin əvvəlləri feodal Bakı şəhərinin çiçəklənmə dövrü idi. Şirvanşahlar şəhərini bir sıra qurğularla bəzədilər və möhkəmləndirdilər. XII əsrin birinci yarısında şəhərin qala divarları ucaldıldı və bir sıra istehkam işləri görüldü. Şəhərin müdafiə qurğuları sisteminə Qız Qalası da daxil idi.

Bu dövrdə Şirvanın varlı şəhərlərindən biri və Xəzər dənizində mühüm liman olmaq etibarı ilə Bakının əhəmiyyəti daha da artır. Bu dövrün qaynaqları Bakını alınmaz qala və Şərqin böyük şəhərlərindən biri kimi təsvir edirlər.

Xaqaninin Şirvanşah Axsitan ibn Mənuçöhrü mədh edən məlum qəsidəsində (XII əsr) şair Bakı haqqında alınmaz qala və Şərqin böyük şəhəri kimi danışır, onu Bəstamla – Şərqdə Xorasanda güclü istehkamları olan şəhərlə müqayisə edir. Bəllidir ki, XII əsrdə Bakı qala hasarları ilə əhatəyə alınmışdı.

Dəmirçilik, dulusçuluq, toxuculuq, sikkə zərb edilməsi və s. kimi sənətlər get-gedə inkişaf tapmışdır. Bu zəmində mühüm bir proses – sənətkarlığın ayrı-ayrı sahələri üzrə istehsalın ixtisaslaşdırılması baş verir.

XI-XV əsrlərə aid arxeoloji və numizmatika tapıntılar, Bakı ərazisində və digər bölgələrdə aşkar edilən, Bakıda zərb edilmiş sikkələrdən ibarət çoxlu sayda dəfinələr, zəmanəmizə qədər gəlib çatmış bir sıra memarlıq abidələri, saxsı qalıqları – bütün bunlar şəhər həyatının intensivliyindən, sənətkarlığın inkişaf etmiş olmasından, ticarət münasibətlərindən, o çağlar ipək ticarət predmetləri idi, onlar cənubdan Bakı, şimaldan isə Bilgə vasitəsi ilə dəniz yolu ilə və eləcə də quru yolla ayrı-ayrı ölkələrə daşınırdı.

XII əsrdə Şirvanın varlı şəhərlərindən biri, Xəzər dənizində mühüm liman və ticarət mərkəzi olmaqla, Bakının önəm daşıması Xaqaninin (XII əsr) Şirvanşah Mənuçöhrün oğlu Axsitanı mədh edən məşhur qəsidəsində qeyd edilir.

*Bakı duasını unutmaz bir an*
*Olub sayəsində Bəstam, Xavəran.*
*Bakı öz qüdrəti nəticəsində*
*Bac istərn Xəzər, Rey və Zirehgərandan.*

(Burada Xavəran dedikdə – Xorasan, Zirehgəran dedikdə – indiki Dağıstanın Kubaçı diyarı nəzərdə tutulur).

Qədim şəhərin siması təkrarsız gözəlliyə malikdir. Bu gözəlliyi ona bəxş edən təkcə orta əsrlərin Qız qalası, saray ansamblı və qədim məscidlərə kimi ayrı-ayrı görkəmli memarlıq abidələri deyil, həm də yerin relyefindən uğurla istifadə edilməklə tikilmiş, geniş buxtanın sahili boyunca yerləşmiş dar küçəli və döngəli qədim evlər kompleksi, bazarlar və meydanlardır. Şəhərin mərkəzi XVI əsrə qədər Şirvanşahın və feodal əsilzadələrin yaşadıqları təpənin zirvəsində yerləşirdi.

Şəhər orada yaşayan əhali təbəqəsinin adını daşıyan bir sıra məhəllələrə bölünürdü və hər məhəllənin öz məscidi vardı. Məsələn, bizim günlərə qədər orada yaşamış tirələrin adını daşıyan köhnə adlar qalmışdır: Yeddilər, Gilək və ya Doqquzlar. Bundan

başqa Hamamçılar, yaxud Həkkaklar və s. Şahgəldi məhəlləsinin adı da maraq doğurur.

A.A.Bakıxanov öz əsərində mənşəcə Şirvandan olan, elmi əsərlər yazmış görkəmli orta əsr alimlərinin adlarını sadalayır və onların arasında Məhəmməd Əli Bakuvi adı ilə tanınan şeyx Əbu Abdulla Əli ibn Məhəmməd Bakuvinin (Bakı sakini) adını çəkir. Bakuvi (948-1050) Bakıda ilahiyyatçı ailəsində anadan olmuşdur. Atası onun ilk müəllimi olmuşdur. Bakuvi zahirilərin ardıcılı olmuş, sonralar batinilərə qoşulmuşdur. Ahıl yaşlarında Bakını tərk etmiş, dağda bir mağarada məskən salmış və tərkidünya həyatı yaşamışdır. O, şair və filosof-panteist idi. Bakuvi çoxlu səyahətlər etmiş, İran, Orta Asiya, Ərəbistan və deyəsən, Hindistanda olmuşdur. Səyahətdən qayıdanbaş Nişapurda və Şirazda yaşamışdır. Bakuvi öz şeirlərini «Badakuhi» (dağda yaşayan qoca) təxəllüsü ilə yazmışdır. Onun əsərləri hədislər külliyyatından, sufilərin həyatı haqqında külliyyatdan, «Əxbar əl-arifin», «Əxbar əl-qafilin», şeirlər və hikmətli sözlər külliyyatından ibarətdir. O, şiə idi, lakin onu mömin müsəlman saymaq olmazdı. Onun dünyagörüşü od kultunun təsiri altında idi və Günəşə sitayiş edirdi. Bakuvi şərqin bir çox ölkələrində məşhurlaşmışdı.

Azərbaycan xalqının çox peşəkar xanəndələri və musiqiçiləri muğam əsərlərini ifa edirdilər.

Azərbaycan, İran və Hindistanın musiqi mədəniyyəti bu ölkələr arasında həm qədim çağlarda, həm də orta əsrlər dövründə mövcud olmuş və bu gün də davam edən çoxəsrlik təmaslarla şərtlənən bir çox ümumi cizgilərə malikdir.

Azərbaycanın rəqs sənəti çoxəsrlik ənənələrə malikdir və söyləmək olar ki, bizim zəmanəyədək – qədim çağlardan XX əsrin əvvəllərinə qədər öz ilkin tərzində gəlib çatmışdır.

XII əsrdən etibarın Bakının şəhər mədəniyyətinin yüksəlişi feodal cəmiyyətinin bütün əvvəlki tarixi ilə hazırlanmışdır. XII əsr və XIII əsrin 20-ci illərinə qədərki dövr – Bakının çiçəklənməsinin ilk dövrü olmuşdur. Bakı Azərbaycan ərazisində iri feodal qurumlarından biri olan Şirvanşahlar Dövlətinin paytaxtına çevrildiyi XV əsr şəhər mədəniyyətinin çiçəklənmə dövrüdür.

**Vəfa Quliyeva**
**tarix elmləri doktoru, professor**

# ŞİRVANŞAHLAR SARAYI – AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN RƏMZİ

Şirvanşahlar Sarayı Kompleksi minillik tarixə malik olan Şirvanşahlar dövləti hökmdarlarının son iqamətgahı olmuş, Azərbaycan dövlətçiliyinin qədim köklərə malik olduğunun bariz nümunəsidir. Azərbaycanın cənubunda feodal dövlətləri bir-birini əvəz etdiyi halda, onun şimalında min il ərzində Şirvanşahlar dövləti mövcud olmuş və müəyyən tarixi dövrlərdə onun sərhədləri Dərbənd daxil olmaqla Cənubi Dağıstanı da əhatə etmişdir.

Şirvanşahlar Sarayı Kompleksi İçərişəhərin ən hündür nöqtələrinin birində, bir vaxtlar əhalinin ən sıx yaşadığı yerdə inşa edilmişdir.

Kompleksə daxil olan abidələrin təyinatına dair mülahizələrimi diqqətinizə çatdırmaq istərdim.

Kompleksin şah əsəri **Fərrux Yasarın xatirə türbəsidir**. Türbə dördgüşəli qapalı həyətdə yerləşir. Türbənin həyətinə küçədən və yuxarı həyətdən gələn iki giriş var. Dördgüşəli həyət üç tərəfdən yerdən bir qədər yuxarı qaldırılmış sütunlu və çatmatağlı eyvanla əhatə olunur. Həyətin mərkəzində, sütunlar üçün olan yüksək özülün – stilobatın üzərində, eyni orderli açıq tağ sırası ilə əhatə olunmuş səkkizgüşəli rotonda durur. Rotondanın da iki giriş qapısı vardır. Əsas, qərb girişi zəngin nəqşli təmtəraqlı portalla seçilir. Portalın səthi şərq xalçalarının ornamentlərini xatırladan ornamentlərlə, eləcə də dərinliyi 3-5 sm olan daş üzərində oyulmuş naxışlarla bəzədilmişdir. Portal divar oyuğunun qabırğalı yarımgümbəzi 7 sıralı stalaktit kəmərə söykənib. Stalaktitlərin üzərində düz sahədə nəbati ornamentlər həkk edilmişdir.

**İkimərtəbəli yaşayış binası** Kompleksin daha qədim tikilisidir. Bu asimmetrik formalı ikimərtəbəli binada mərtəbələr

arasında əlaqə divar içində tikilmiş üç dar pilləkənlə saxlanılır. Sarayda vaxtilə 52 otaq olmuşdur. Onlardan 27-i birinci mərtəbədə, 25-i isə ikinci mərtəbədə idi. Mağzalşəkilli dar pəncərələri olan aşağı mərtəbə nökər-naib, təsərrüfat işləri və anbarlar üçün nəzərdə tutulmuşdur.

Dərviş türbəsi, Bayıl qəsrinin qalıqları, hal-hazırda mövcud olmayan Key Qubad məscidinin bünövrəsi və Şərq Portalı **orta həyətdə** yerləşirlər.

**Şərq portalı** kompleksin ən son tikilisidir. Murad darvazası adı ilə tanınan Şərq portalı Kompleksin bütün abidələrindən xeyli sonra XVI əsrdə Bakı Osmanlı türklərinin işğalı altında olarkən inşa edilmişdir. Portalın yuxarı hissəsi ərəbcə yazılmış kitabə ilə bəzədilmişdir: "Bu nəcib imarəti tikməyi ən adil və müəzzəm sultan Murad xanın hakimiyyəti zamanında ulu Rəcəb baba Bakuyi h.994 (1585-86)-cü ildə əmr etmişdir".

Orta həyətdə üzərində kitabə və təsvirlər olan 699 daş plitələr nümayiş etdirilir. Onlar Saray Kompleksi tikililərinin qalıqları deyillər, lakin Şirvanşahlara aiddirlər. Bütün bu daş lövhələr Bakı körfəzinin dibindən tapılmışdır. Bu daşlar orta əsrin ən maraqlı memarlıq abidələrindən biri, uzun əsrlər boyu Bakı buxtasında su altında qalmış **Bayıl qəsrinin** qalıqlarıdır.

İbadət həyəti adlandırılan **aşağı həyətdə** Şirvanşahların ailəvi türbəsi və Saray məscidi vardır. Saray hamamı və Ovdan Kompleksin ən aşağı hissəsində yerləşirlər. Kompleksin aşağı həyəti digərlərindən tağlı keçidi olan qapalı divarla ayrılır.

Şirvanşahların türbəsi düzbucaqlı, üzəri altıtinli gümbəzlə örtülü binadır. Gümbəz xarici tərəfdən kəsmə, qabarıq çoxbucaqlı ulduzlarla bəzədilmişdir. Keçmişdə gümbəzin hamar səthlərindəki çökəkliklərə (ulduz şəkilli yarıqlara) mavi rəngli minalı kaşı doldurulmuşdur. Müasir dövrdə onlar gümbəzin üzərində saxlanılmamışdır, lakin arxeoloji qazıntılar zamanı muzeyin ərazisindən tapılmışdır.

**Saray hamamı** kompleksin ən aşağı hissəsində yerləşir. Şərqin başqa hamamları kimi bu hamam da temperatur rejimini – qışda istiliyi, yayda isə sərinliyi saxlamaq üçün yarıyeraltı tikilib.

Hamam uzun müddət torpağın altında qalmış, yalnız 1939-cu ildə aşkar edilmişdir və 1961-ci ildə konservasiya edilmişdir. Saray kompleksinin təyinatına dair müxtəlif fikirlər söylənilir. Lakin bunlar ciddi elmi dəlillərə əsaslanmır. Kompleksin saray və Şirvanşahların igamətgahı olduğunu bunun tarixən hücumlara məruz qalması, dağıdılması, Şirvanşahların ailəvi türbəsinin burada yerləşdirilməsi sübuta yetirir. Azərbaycan xalqının dövlətçilik ənənəsinin dərin köklərə malik olduğunu sübut edən möhtəşəm kompleks bu gün dövlət tərəfindən qorunur.

**Kamil İbrahimov**
**tarix elmləri doktoru, professor**

# ŞİRVANŞAHLAR SARAYI ƏRAZİSİNDƏ APARILAN ARXEOLOJİ TƏDQİQATLAR TARİXİNDƏN

Qədim Bakının orta əsr memarlığının şah əsərlərindən biri sayılan, dövlətçilik tariximizi bizə unutdurmayan, 500 il Şirvan hakimlərinin iqamətgahı olmuş "Şirvanşahlar saray ansamblı", öz üstünlüyünü hələ də saxlamaqdadır.

Orta əsrlərdə Şamaxıda baş verən gərgin hadisələr dövründə Bakı şəhəri nisbətən sakit şəraitdə inkişaf edirdi. XII əsrdə Bakıda möhkəm qala divarlarının Şirvanşah III Mənüçöhrün (1120-1149) göstərişilə təqribən 1138-39-cu illərdə inşa olunduğu məlumdur. Şamaxı 1191-ci ildə zəlzələ nəticəsində dağıldıqdan sonra Şirvanşah Axsitan Şirvanın ikinci paytaxtına çevrilən Bakını özünün iqamətgahı etmişdi. Bu dövrdən başlayaraq şəhərin müdafiəsinin qayğısına qalaraq onu düşməndən layiqli müdafiə etmək üçün güclü fortifikasiya sistemi yaratmışdı. Saray kompleksinin əsasının elə bu dövrdən qoyulduğu ehtimal edilir. Bunu istər XII əsrin sonu – istərsə də XV əsrdə Bakıda və Abşeronda ucaldılmış və bu günümüzədək qalan möhtəşəm müdafiə tikililəri – bürclər, qəsrlər, qalalar və qala divarları sübüt edir.

**Divanxana, yuxarı həyət və saray binasında arxeoloji qazıntılar.** Divanxananın həyətindəki təsərrüfat quyularından birini təmizləyərkən şirli qabın fraqmentləri tapılmışdır. A.Paxomov yazır: "aşağıda, qara, yumşaq torpaqda nəinki şirli, həm də adi, əsasən ağ gildən hazırlanmış saxsı qab qırıntıları aşkar olundu, toplanmış saxsı fraqmentlərindən bəzi əşyaları tam bərpa etmək mümkün oldu. Onlardan nazik divarlı, ayaqlı, çox incə formalı və çox zərif bişirilmiş gildən hazırlanmış saxsı vaza; bir sıra kiçik dairəvi şirli, gözəl naxışlı boşqab; bəzi sadə küpələr və çıraqlar xüsusilə diqqəti cəlb edir". I təbəqədən tapılmış qablardan biri XIV-XVI əsrlərə, o birisi isə XV əsrə aiddir. Oksidləşmiş

pullar və adları çəkilən materiallar onları təqribən XV əsrə aid etməyə əsas verdi .

Quyudan yuxarıda, yer səthinin müxtəlif səviyyələrində, mavi кaşılarla qarışmış tiкinti qatından və materiкüstü təbəqədən tapılmış, sadə şirsiz və şirli кeramiкanın fraqmentlərinin stratiqrafiк analizi göstərdi кi, alt qatın кeramiкası hələ Divanxananın tiкintisindən daha əvvəl, laкin XV əsrdən gec olmamaq şərti ilə buraya düşmüşdü.

Tapıntılar içərisində anqoblanmış, əsasən oymalarla bəzədilmiş və şəffaf yaşıl mina ilə şirlənmiş qablar xüsusi seçilir. Quyunun beşinci metrdəki təbəqədən tapılan materiallar onları XV əsrə aid etməyə imкan verdi (çin istehsalı olan seladon qaba əsasən). Onun diametri 40 sm, кənarları кələ-кötürdür, albalıya bənzəyən, laкin olduqca stilləşdirilmiş yarpaqlı relyef meyvələriylə bəzədilmişdi.

**Keyqubad məscidi və Dərviş türbəsi ətrafında tədqiqat.** 1944-cü ildə Şirvanşahlar sarayı кompleкsi ərazisində arxeoloji qazıntılar Azərbaycan tarix muzeyi tərəfindən davam edilmişdir. Dərviş türbəsinə yaxın III və IV sahələr hələ 1938-39-cu illərdə tədqiq olunmuş və buradan da müxtəlif şirli və şirsiz кeramiкanın fraqmentləri tapılmışdır. Bu qonur rəngli, bişirilmiş, səthi xeyli hislənmiş qazanların diametri 30 sm, böyüк dairə hissəsində maкsimal diametri 36 sm., üfüqi qatlanmış кənarlarının eni 2 sm, hündürlüкləri isə 18 sm. idi.

1944-cü il qazıntıları daha bir neçə qrup saxsı məmulatını tədqiq etməyə imкan verdi. Onlar geniş xronoloji çərçivəni əhatə edir və istehsal texnologiyasında mütləq varisliyi təsdiqləyirdi. Belə кi, əкsər fraqmentlər Gəncə və Örənqala həmdövr materialları ilə tamamilə eynidir.

**Saray məscidinin girişində təsadüfi aşkar olunmuş qəbir haqqında.** Şirvanşahlar sarayı kompleksində, aşağı həyət ərazisində, saray məscidinin girişində 22.10.2006 il tarixdə təsadüfən qəbr abidəsi aşkar olunmuşdur. Qəbir, məscidin girişində yağış sularının toplanıb bünövrəyə zərər vurmaması üçün bərpa işləri aparılarkən drenaj üsulu ilə su borusu xəttinin çəkilməsi zamanı tapılmışdı. Qəbir üzə çıxan zaman torpaq işləri

dayandırıldı. Qəbri öyrənmək üçün onun üstünün götürülməsi məsləhət olunmadığından qəbrin şərq tərəfində açılmış deşikdən onu müşahidə edərək öyrənildi.

**Saray hamamı və ovdanda aparılan arxeoloji işlər.** Kompleksin ən aşağı həyətində saray hamamı yerləşir. İçərişəhərin bütün hamamları kimi bu hamam temperatur rejimini sabit saxlamaq üçün yer altında tikilib. Vaxt keçdikcə torpaq qatının qalınlığı artaraq onu tamam örtmüşdü. Hamam 1939-cu ildə təsadüfən aşkar olunmuş, 1953-cü ildə bir hissəsi təmizlənmiş, 1961-ci ildə konservasiya edilmişdir. Günbəz təmir olunmuşdur. Kənar otaqlardan birinin divarları kaşı üzlüyə malikdir. Ehtimal ki, bu otaq şahın özünə məxsus imiş.

Şirvanşahlar sarayını su ilə təchiz etmək üçün hamamın aşağı hissəsində ovdan (yeraltı su paylayıcı sistem) inşa olunmuşdu. Ovdana su şəhərin dağılıq hissəsindən kəhriz sistemi vasitəsilə çəkilmiş küng (saxsı) borularla, "Şah su kəməri" ilə daxil olurdu. Ovdan yer altında yerləşərək onun girişi portal şəklində tərtib olunub və oradan anbara çox saylı pilləkən enir. Ovdanla hamam arasında əlaqənin olduğu yan vestibüldən görünür. Ovdan 1954-cü ildə təsadüfi təmir işləri aparılarkən aşkar edilmiş və konservasiya olunmuşdur.

Beləliklə, aydın olur ki, "Şirvanşahlar sarayı ansamblı" Azərbaycan memarlığının monumental dekorativ sənətinin möhtəşəm nümunəsidir. Saray kompleksi ərazisində, XX əsrin əvvəllərində aparılan arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri, milli dövlətçilik tariximizin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir.

**Rayihə Əmənzadə**
**Memarlıq üzrə elmlər doktoru**

# КОНСТРУКТИВНЫЕ ОСОБЕННОСТИ СТРОЕНИЙ ДВОРЦА ШИРВАНШАХОВ

Конец X1V - нач. XV вв. отмечен выбором Баку в качестве столицы государства Ширваншахов и строительством здесь дворца для правящей династии, зримого символа сильного государства. Дворец Ширваншахов один из очень немногих, сохранившихся почти в целостном виде ансамблей с четкой планировочной и объемно-пространственной идеей, в котором с наибольшей полнотой воплощены творческие методы и композиционные приемы выдающихся зодчих. Ансамбль занимает господствующее положение на вершине и склонах холма, на участке с сильно выраженным рельефом, главным пунктом наблюдения и обороны города. Величественные массы строений определили высотный и объемный силуэт всего дворца, четко читающийся на фоне бирюзового небосклона. Архитектурной целостности ансамбля способствует единомасштабность всех зданий, общий колорит всей застройки из благородного камня- известняка.

Живописная планировка как нельзя лучше отвечает функционально – бытовому назначению строений, единообразных по своим абсолютным размерам, и, которые сосредоточены в нескольких небольших двориках. Максимальное использование территории двориков дало возможность устройства здесь фигурных водоемов с благозвучной струей освежающей воды, тенистых уголков с цветниками и пахучими кустарниками полных особого очарования, без которых не мыслилась средневековая архитектура Азербайджана.

Изначально заданную художественную систему зодчие дополнили и развили с огромным тактом и изяществом. Исходная ландшафтная ситуация с ярко выраженной ярус-

ностью не снивелирована, не «перебита», а превосходно решена. На относительно небольшой площади (около 1 га) размещены и гармонично взаимоувязаны типологически разные, композиционно не повторяющиеся монументальные строения, это собственно дворец, диван-хане, дворцовая мечеть, Тюрбе, мавзолей Шейха Сейида Яхья Бакуви, мечеть Кей - Кубада (утрачена), «Восточный» портал-ворота, хама Пространственная разработка строений приобретает доминирующую роль, архитектоника интерьера меняется радикальным образом, определяясь главным образом состоянием строительной техники, уровнем его развития. Они имеют несколько линий построения, в том числе сталактитовые, щитовидные - сферические паруса всевозможных прорисовок .

Выбор формы перекрытия тесно связан со строительным материалом, что было немаловажным фактором. В каменных строениях пролет купола имеет главным образом сфероконическую форму, в основном одну по варьирующейся толщине профиля оболочку, и, он невелик, в отличие от кирпичных двойных перекрытий. Значительно сокращаются пролеты купольных перекрытий на более или менее высоких барабанах, приобретавших в объемных композициях парадных строений заметную высоту и стройность. Каменные купола и конховые ниши пространственно развитых порталов (диван-хане, Тюрбе, Восточные ворота) усложнены сеткой конструктивных «ребер жесткости» - своеобразных нервюр, имеющих в работе конструктивной системы подсобную роль, усиливая противостояние конструкции деформациям (1, с.148). Они приобретали многообразие декоративных форм радиальных, усиливающих работу всей конструкции тщательно проработанных «ребер», сходящихся в «пучок» - полукупола (порталы), в зените куполам.

Конструкции Тюрбе, мавзолея построенного в нижней части среднего двора дворца Ширваншахов включающего несколько помещений характерны оригинальностью решения в каждом, перекрытия даже в самых крохотных - сводчато-купольные. Купольное перекрытие в основном поме-

щении имеет рубчатое членение, в зените «стянутое » в розетку, а динамичные щитовидные паруса создают сильный эстетический эффект. Щитовидные паруса соответствуют новым композиционным построениям архитектоники интерьера, вызванными необходимостью уменьшения пролета купола, усилению пространственности. На рубчатом красивого абриса куполе Тюрбе отчетливо прочитываются геометрического рисунка орнаменты - одинаковые в каждой из секций, и, которые были выложены изначально «лазоревыми каменьями»

Портальные композиции дворца Ширваншахов занимают доминирующее место и значимость ведущего компонента архитектурных строений. В них налицо завершенность и целостность композиции, легкость и совершенство точно найденных пропорций, виртуозная пластика членений. Они сообщают строениям особую парадность архитектурно – художественного образа, и, именно в них сосредоточен весь комплекс художественных средств. Во дворце согласно проведенной нами классификации порталов наличествует несколько типов портальных композиций, в том числе объемно – пространственные порталы, порталы – эйваны, отдельно- стоящий портал ( 4, с. 12 - 19). Пространственно развитые, выделенные по высоте порталы диван-хане и Тюрбе принадлежат к классическому типу портальных композиций, имеющих глубокую конховую нишу, схожесть архитектоники членений. В них процесс перехода от внешнего пространства к внутреннему значительно осложнен и осуществляется посредством ребристого полукупола, пластически подчеркнутого сталактитовой композицией в щипце и в щеках ниши. Великолепен портал - «Восточные» ворота ( 1585) со строгим , хотя и исключительно элегантным строем членений, который составил один из лучших примеров отдельно стоящих портальных композиций. Исключительно эффектны порталы - эйваны дворцовой мечети, которые не превышают по высоте само строение, создают сильную пластику на глади его фасадных стен.

**Qafar Cəbiyev**
**tarix elmləri doktoru, professor**
**Fariz Xəlilli**
**tarix üzrə fəlsəfə doktoru**

# ORTA ƏSR ŞIXMƏZİD XANƏGAHI

Təsəvvüf terminlərinin izahatında xanəgah və ya xangah bir təriqətin bütün təkyələrinin bağlı olduğu və şeyxin yaşadığı təriqətdə ən ali məqamdakı təkyəyə deyilir. Təkyələr əsasən təhsil və tərbiyə məkanları olub. Şeyxin ailəsi ilə birgə qaldığı hissə ümumiyyətlə, təkyəyə bitişik olurdu. Zaman keçdikcə təkyələr memarlıq baxımından da inkişaf yolu keçib. Mükəmməl quruluşlu xanəgahda səmaxana, xəlvətxana, hücrələr-dərviş otaqları, kiler-mətbəx, qəhvəxana ocağı, hamam, məscid, axur, şeyx türbələri olur. Həmişə təkyədə qalan dərvişlər eyni zamanda təkyə xidmətlərini də həyata keçirirdilər.

2012-ci ildə Ağsu arxeoloji ekspedisiyasının rəhbərliyi yerli sakinlərin şifahi məlumatı əsasında Ağsu şəhərinin Şıxməzid məhəlləsindəki türbə yerinə baxış keçirərkən orada orta əsrlərə aid möhtəşəm tikinti qalıqlarının olduğunu aşkar etmişdir. O zaman abidəni xilas etmək məqsədilə orada ilkin arxeoloji kəşfiyyat qazıntıları aparılıb. Beləliklə də orada səliqə ilə yonulmuş iri ölçülü mədən daşlarından istifadə olunmaqla üzü qiblə istiqamətində tikilən düzbucaqlı formasında möhtəşəm bina qalıqları aşkara çıxarılmışdır. Bina təqribən 400 kvadratmetrə qədər sahəni əhatə edən iri zaldan və nisbətən kiçikölçülü çoxsaylı otaq-hücrələrdən ibarətdir.

Xatırladaq ki, Əbu Müslimin Azərbaycanda İslamı yaymaq və möhkəmləndirmək fəaliyyəti ilə əlaqələndirilən və VIII əsrə aid edilən məscidlərdən birinin qalıqları hələ 1926-cı ildə Cəmil Aleksandroviç-Nasifi tərəfindən Ağsu rayonu ərazisində aşkarlanıb tədqiq edilmişdir. Mütəxəssislərin gəldiyi qənaətə görə, Şamaxı Cümə məscidi ilə eyni plan quruluşuna malik

bu tikili onunla həmdövr olmuş və dəfələrlə təmir edilmişdir. Böyük ehtimal ki, Şıxməzid Ağsu şəhərinin məhəllələrində aşkar olunmuş kompleks ola bilsin ki, elə həmin məscidin qalıqlarıdır.

Bu ərazidə aşkar edilən qəbirlərdə dəfn edilən şəxslər islam qaydası üzrə, yəni sağ çiyini və üzü qibləyə dəfn olunsa da, ortaya daha maraqlı faktlar çıxıb. Maraqlıdır ki, əksər qəbirlərin üzəri 4, 6 və ya 8 ədəd səhənglə örtülüb. Belə dəfn adətinə hələ ki, heç bir müsəlman ölkəsində rast gəlinməyib.

Zəki Vəlidi Toğan əslən Polşa tatarı olan alim Cəmil Aleksandroviç Nasifiyə istinadən Nadir şahın dövründə Şirvanın paytaxtı kimi qəbul olunması ilə əlaqədar adı göstərilən Ağsunun hələ XIV əsrdə monqollar və Teymur zamanında böyük əhəmiyyətə malik olduğunu yazır. Nasifi Ağsunun 1,5 km şimalında olan Şeyx Məzid türbəsinin, əvvəlcə zənn edildiyi kimi, XVII əsrə aid abidə olmayıb daha qədim olduğunu göstərir. Rəvayətə görə, Şeyx Məzid bir təbib-alim imiş. Türbənin qapısında binanı tikən şamaxılı Şeyx Şəmsəddinin kitabəsində verilən yeddi yüz doqsan qeydindən abidənin 1388/89-cu ilə aid olduğu bilinir. Nasifi Ağsudan 3 km şimali-şərqdə alim və müctəhid "Şeyx Dursun ibn Əhməd bəy əl-Gilani"nin, üzərindəki kitabəsindən 806-cı ilin zilqədə ayında (may, 1404) tikildiyi bilinən, türbəsini [də] ziyarət etmişdir. Yəni hər iki abidə Teymurun və Şirvanşah Şeyx İbrahimin dövrünə aiddir. Xatırladaq ki, 1647-ci ildə Ağsuda olan Övliya Çələbi buranın min evli, cameli, karvansara və hamamlı, bağlı-bağçalı abad qəsəbə olduğunu yazır. Övliya Çələbi eyni zamanda Ağsu çayı yanında Fərruxzar adlanan kiçik bir şəhər barədə də məlumat verir.

**Xeyirbəy Qasımov**
**tarix elmləri doktoru**

# ŞİRVANDA MEMARLIĞIN İNKİŞAFINA DAİR (XV-XVI ƏSRLƏR)

Şirvanın memarlıq abidələri meydana gəldiyi tarixi dövrün ictimai-siyasi, iqtisadi, ideoloji hadisələrini, tikinti-texniki səviyyəsini əks etdirən, həmin dövrün digər sənət sahələri haqqında xeyli məlumat verən obyektlərdir. "Çoxəsrlik tarixi təcrübə göstərir ki, şəhərsalma sənəti cəmiyyətin siyasi-ictimai quruluşu, iqtisadi gücü, məhsuldar qüvvələri, mədəniyyət və incəsənətin inkişaf səviyyəsi ilə çox bağlıdır". O, xalqın taleyi ilə, qədim adət-ənənələri, milli xüsusiyyətləri, psixologiyası, habelə təbii-iqlim şəraiti ilə şərtlənən mürəkkəb yaradıcılıq sahəsidir.

XIV əsrin sonlarından etibarən Şərq ölkələrində (eləcə də Şirvanda şəhərlərin əhəmiyyəti yenidən artmağa başladı, onların bir çoxu inzibati mərkəzlərə çevrildi. Bu dövrdə hökmdarların iqamətgahları əvvəllər olduğu kimi uzaq və əlçatmaz qalalarda deyil, məhz şəhərlərdə yerləşirdi. Məsələn, XV əsrdə Bakının Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsi prosesini, şəhərsalma tədbirlərinin miqyasını xatırlamaq kifayətdir. Orta çağların Azərbaycan şəhərlərinin çoxusu müdafiə funksiyası daşıyan qala divarları ilə əhatə olunduğu üçün onların inkişafı məhdudlaşmışdı.

Şəhər planının müdafiə sistemindən asılılığı onun strukturuna və kompozisiyasına böyük dəyişiklik gətirə biləcək əsaslı şəhərsalma işlərinin aparılmasını çətinləşdirirdi. Orta əsrlər ərzində Şirvanda şəhərlərin plan quruluşunun əsrlərlə çox az dəyişməsi səbəblərindən biri də məhz bu idi.

Bu dövrdə Şirvanda memarlığın inkişafını zəruri edən obyektiv şərtlər aşağıdakılar idi:

1. İslam dini ideologiyası – məscidlərin, mədrəsələrin, müxtəlif dini təyinatlı obyektlərin inşasını tələb edirdi;

2. Ticarət və sənətkarlığın artımı – müxtəlif tipli bazarların, dükanların, karvansaraların, ovdanların və s.-nin tikintisini zəruri etmişdi;

3. Şəhərlər, ölkələr arasındakı inteqrasiya, əlaqə meyili – ticarət yollarının, körpülərin və s.-nin salınmasını tələb edirdi;

4. Hakim sinfin mənafeləri – sarayların, saray komplekslərinin, müxtəlif təyinatlı emalatxanaların tikilişini zərurətə çevirmişdi;

5. Yaşayış məskənlərinin qorunması zərurəti – müxtəlif müdafiə obyektlərinin (qalaların, qüllələrin, qala divarlarının), istehkamların inşasını labüd edirdi. Hərbi-siyasi münaqişələrlə zəngin olmuş orta çağlarda bu zəruri şərtlər (xüsusilə sadalanmış son şərt – müdafiə zərurəti) daim yaşarı idi, fasiləsizliyi ilə diqqəti cəlb edirdi.

Həmin əsrin Şirvan abidələrinin əsas kütləsi Bakıda və Abşeron kəndlərindədir. Bunlar məscidlər, karvansaralar, hamamlar və xatirə tikililəridir. Yaxın və Orta Şərq regionunun ən nadir ansambllarından biri olan Şirvanşahlar saray kompleksi /Bakı/ Şirvan-Abşeron memarlıq məktəbinin tipik nümunəsidir. XV əsrin II rübündə yaradılmış bu kompleks saray, divanxana, Şirvanşahlar türbəsi /1435/, ovdan /1436/, hamam /1438/, Şah məscidi /1441/, Keyqubad məscidi və Seyid Yəhya Bakuvinin türbəsindən ibarətdir. Şirvanşahlar dövləti paytaxtının Şamaxıdan Bakıya köçürülməsi Bakını bu zamanın ən intensiv şəhərsalma obyektinə çevirmişdi (saray kompleksi və s.). “Planlaşma prinsipi və memarlıq bədii həllin ümumiliyi, binaların bir-birinə yaxın illərdə tikilməsi və kompleksin qısa bir dövrdə formalaşması (XV yüzilin ikinci rübündə) belə bir fikir oyadır ki, Şirvanşahlar sarayı ansamblı bir memarın nəzarəti altında inşa edilmişdir. Ola bilsin ki, ansamblın “baş memarı” Şirvanşahlar türbəsinin baş tağındakı medalyonda adını yazmış Memar Əlidir” . “Şirvanşahlar sarayı kompleksi XV əsrin «təxminən 10-cu illərində tikilmişdir”. Saray kompleksi aydın surətdə düşünülmüş plana, sxemə malikdir. Bu sxemə əsasən kompleks iki hissəyə (rəsmi və şəxsi istifadə məqsədli) ayrılır.

XVI əsrdə də Azərbaycan memarlığının aparıcı istiqamətlərindən biri Şirvan-Abşeron məktəbi idi. Bu memarlıq məktəbi XVI əsrin əvvəllərinədək Azərbaycanda aparıcı rol oynamışdır. Həmin məktəbin uğurlarının mənbəyi ictimai-siyasi həyatın sabitliyində və IX əsrdən etibarən uğurla yüksələn Şirvanşahlar dövlətinin mövcudluğunda idi. Şirvan-Abşeron memarlıq abidələrinin ən gözəl nümunələri bu məktəbin başlıca mərkəzlərində – Bakı, Şamaxı və Dərbənd şəhərlərində cəmləşmişdi.

Ümumiyyətlə, müsəlman Şərqində Azərbaycan memarlıq məktəbi yüksək qiymətləndirilirdi. «Azərbaycanın beynəlxalq memarlıq əlaqələrində fəal mövqe tutduğunu belə bir fakt da təsdiq edir. Azərbaycan ərazisindəki memarlıq abidələrinin heç birində gəlmə sənətkarların, yadelli memarın adı aşkar edilməmişdir. Çoxlu azərbaycanlı memarın, xəttatın və nəqqaşın adları isə Şərqin müxtəlif şəhərlərinin monumental abidələrində indiyəcən qalmaqdadır»

**Aytən Səlimova**
**Memarlıq üzrə fəlsəfə doktoru, dosent**
**Sabir Orucov**
**Memarlıq üzrə fəlsəfə doktoru, professor**

# ХАНСКИЙ САД В НАРДАРАНЕ

Нардаран - расположен в 30 км к северо-западу от Баку. Возможно, наличие крепости (1301г.), хотя и небольшой, стало основной причиной, по которой Ширваншахи построили здесь свою летнюю резиденцию (XIII – XIV вв.). Но, кроме того, также следует отметить выгодное географическое и стратегическое положение - расположение на возвышенности и близость к морю. Резиденция была построена в двух километрах от морского побережья, на холме. «Ханская дача» - стилистически близка к ранним постройкам ансамбля дворца Ширваншахов . И. Щеблыкин писал, что данный «памятник, как по планировке, так и по внешнему виду, очень прост и скромен. Полное отсутствие, каких бы то ни было украшений по всем четырем фасадам, заменяется здесь прекрасной облицовкой: камни хорошо подогнаны, чистая теска, а самое главное, выдержанные пропорции масс – вот что заменяет декоративные моменты на наружных фасадах».

Само сооружение трехъярусное, высотой в 12 метров квадратной формы со сторонами по 14 м – состоит из центрального помещения (5,5м) и четырех небольших комнат, устроенных в углах здания (2,7м). Здание построено из местного камня; по всему периметру увенчано карнизом, в виде простого гладкого камня, слегка выступающего за линию поверхности стен, венчается куполом, перекрывающим центральную часть помещения.

Отличительной особенностью «ханской дачи» является наличие в ней большого числа проемов.На каждой стороне

фасада имеется по три дверных проема – один в середине (из центрального помещения) и два по бокам (из угловых комнат) - над каждым из которых во втором ярусе пробито по оконному проему. Исключение составляет средняя часть фасада северной стены – где был устроен портал с широким (4,6м) и высоким (5,5м) парадным входом, обрамленным арочным перекрытием, охватившим два яруса .

Перед главным, северным входом в «Ханскую дачу» когда-то была площадка, выложенная крупными каменными плитами.В 20-30 м северо-западнее «дачи» Щеблыкинвм в 1920-х годах было обнаружено небольшая прямоугольная конюшня, вытянутая с севера на юг с кормушками и каменной коновязью.

Рассматривая особенности комплекса, нельзя не согласиться с мнением Л.Бретаникого, считающего, что это летняя резиденциея ширваншахов. По мнению Щеблыкина, архитектура комплекса - широкий открытый проем в сторону моря, доступный для проникновения прохлады, большое количество других проемов, бассейн с водой - эти факты сами говорят за себя, подтверждая, что здание совершенно не приспособлено под зимнее жилье, оно пригодно для временного пребывания в жаркие дни. Также, интересно предположение И.Щеблыгина о том, что здание было предназначено для собраний для «разрешения различного рода вопросов».

Развитие садоводства было неразрывно связано с ростом городов, расположенных вдоль пути следования торговых караванов - Барда, Дербенд, Ардебиль, Марага, Урмия, Шемаха, Шамкур, Шаберан, Байлакан, Гянджа и Нахичевань. Сведения о них, почерпнутые из арабоязычных исторических и географических сочинений, словарей и «дорожников» (Масуди, Истахри, Мукаддаси, Ибн-Хаукаль, Ягут, Хамави и др.), как правило, скудны, однако позволяют сделать некоторые заключения в отношении их садово-паркового искусства. Восторженно отзывается о зеленом облике Барды историк Ал-Истахри: «В Иране и Хорасане, после Рея и

Исфагана, нет города более значительного, более цветущего и более красивого по местоположению и угодиям, чем Барда»

С середины X века бурное развитие получает город Гянджа, чему в немалой степени способствуют благоприятные пространственно-географические факторы и удобное положение его на основных караванных путях. Гянджа к концу X века превратилась в крупный благоустроенный и озелененный город, имевший разветвленную сеть открытых (арыков) и закрытых (кягризов) водопроводов, где действовала развитая система искусственного орошения .

Таким образом, в средневековых городах Азербайджана большое внимание обращалось вопросам ландшафтного проектирования, орошения, была развита кягризная система, а в ландшафтном искусстве была распространена идея «исламского сада».

Рассматривая идею исламского сада – «чахарбага», ассоциируемого с раем, получившего распространение в XIII-XV веках, следует отметить, что исламский сад создавался на основе строгой симметрии, планировка пространства сада представляла собой сочетание квадратов. Самый известный ранний пример «Чахар - бага», ставший основой для всех последующих исламских садов, сады в Пасаргадах, в первой столице Ахеменидов. «Чахар – баг» или «Чар-баг» – «четырёхчленный сад», традиционный отличительный признак планировочной системы которого – осевая планировка, которая сводилась к расчленению квадратного или прямоугольного участка на четыре части с регулярным планом, с центральным положением источника воды и дворцового павильона, четкой разбивкой зеленых посадок.

Таким образом, рассматривая архитектуру летней резиденции Ширваншахов в Нардаране, мы можем предположить, что это был комплекс построенный на основе «чахар-бага» как место летнего отдыха – Ханский сад. В пользу этой версии говорит – осевая планировка, строгое квадратное помещение с бассейном квадратной формы в центре, каналы у бассейна, колодцы.

**Məmmədhüseyn Hüseynov**
**Azərbaycan Dövlət**
**Rəssamlıq Akademiyasının dosenti, xalçaçı rəssam**

# ŞİRVANŞAHLAR SARAYI MEMARLIĞINDA KODLAŞMIŞ ELEMENTLƏR VƏ "QUYU" KULTU

Əsrlərin keşmə - keşli sınaqlarından keçmiş qədim Azərbaycan xalqının çoxlu sayda memarlıq abidələri vardır. Bu abidələr sırasında sayılıb seçilən və Türk – İslam memarlığının sirlərini özündə ehtiva edən "Şirvan Şahlar sarayı" kompleksi xüsusi bir önəm daşıyır.

"Şirvan Şahlar sarayı" adı ilə tanınan daş memarlıq abidəsinin tikilmə tarixinin (XII - XV əsrlər)etimologiyası bu vaxta qədər yaxşı öyrənilsə də onun semantik ruhunu qoruyan və komplektarlıq xüsusiyyətləri ilə yanaşı bir çox elementlərinin öyrənilməsi yeni sualların meydana çıxmasına səbəb yaradır. Bu kompleksin ifadəli və kodlu görkəmi forma baxımından ciddiliyə səbəb olmuş amilləri ilə həm daxili həm də xarici baxılma məfhumunu səciyyələndirir.

IX əsrin 60 – cı illərində Xilafətdə başlanan yeni iğtişaşlardan istifadə edən Heysəm ibn Xalid özünü Şirvanın müstəqil hakimi (şahı) elan etdi və mərkəzi hökümətlə əlaqəni kəsdi. Beləliklə Şirvanın istiqlaliyyəti bərpa edildi.

Bu dövlətin paytaxtı əvvəlcə Şirvan, X əsrin birinci rübündən etibarən Yəzidiyyə (Şamaxı) şəhəri olmuşdur.Müxtəlif tarixi şəraitlərdə Şirvan dövləti özünün varlığını qorumaq üçün cürbə - cür sülalələrin (Məzyədilər, Şəddadilər, Sacilər, Salarilər, Rəvvadilər, Kəsranilər və.s) əlinə keçir, həmçinin bir – birini əvəz edən imperiyaların vassalına çevrilirdi.

1192-ci ildə Şirvanda yeni zəlzələ fəlakətinin üz verməsi onun dövlət mərkəzi olan Şamaxıda misli görünməmiş dağıntılar yaratdı. Bu dağıntılar nəticəsində İslam mədəniyyətinin gözəl mirasları ilə

bərabər qədim Oğuz abidələri də yerlə yeksan oldu. Şirvan Şahının da iqamətgahının Bakıya köçməsini tarixçilər bu hadisə ilə izah edirlər.Burada bəhs etdiyimiz məsələ mədəniyyət və inancla bağlı olsa da, tarixi məqamları vərəqləmək çox mətləblərin həqiqətə uyğun olmasına luzum yaradan vasitə olduğu üçündür. Çünki, Qədim türk – mədəniyyətinin Oğuz inancları sistemlərində özünə müvafiqliyi ən adi üsullarla saxlaması, hətta türk mənşəli olmayan müxtəlif sülalələrin bu mədəniyyətin içərisində əriməsi çox şeylərdən xəbər verir. Və bu fikirləri söyləməklə qeyd etmək istəyirəm ki, 1192 – ci ildə baş vermiş zəlzələ zamanı inanclar üzərində qurulmuş "Kimak" abidələrinin (pirlərin) xarakteri və gizlinləri sonrakı dövrlərdə də Şirvanın digər yerlərində ucaldılan tiklilərdə qorunmağda davam etdi. Elə Şamaxı adının da etimoloji olaraq, formalaşmasını "Kimak" tayfalarının adı ilə bağlı zənn edirəm. Çünki, "Kimak" tayfalarının adları Oğuz boyundan olan bayandurlarla bağlı olaraq, tarixin səhifələrində yer alması çox maraq doğurur.

Son zamanlar bəzi tədqiqatçılar bu məsələyə toxunaraq maraqlı faktlar da əldə etmişlər. Məsələn; İ Tağıyevin yazdığı "Şirvanşahlar sarayı, yaxud Seyid Yəhya Bakuvinin Xanəgahı" adlı kitabının səhifələrində Şirvan Şahlar sarayının mövcud olduğu yerdə daha qədimdən müxtəlif dərinliklərdə olan "quyu"lar barəsində maraqlı və həqiqətə uyğun fikirlər qeyd olunmuşdur. Müəllif kitabında qeyd edir ki, burada; " tikililər olmasa da quyular mövcud idi. XV əsr coğrafiyaçısı Əbdürrəşid Bakuvinin məlumatını yada salaq. Şəhərin təsvirində o, Bakı şəhərinin qurumuş quyulardan ibarət daşlı təpələr üzərində dayandığını yazır. Əsər 1403 – cü ildə, yəni bizim xanəgahın tikilməsindən öncə yazılmışdır. Yadımızdadır ki, Xanəgahın birinci mərtəbəsində yerləşən 25 otağın az qala yarısında biz quyuların mövcudluğunu görürük. Bəzi otaqlarda hətta iki quyu var. Əgər biz quyuların bu otaqlarda yerləşməsinə diqqət yetirsək, otaqlardan düzgün istifadə etməyə mane olan quyuların qaydasız yerləşdiyini görürük. Onların yerləşmələrinə görə, başa düşmək olar ki, onlar "sarayın" inşasından əvvəl mövcud olmuşlar və biz belə quyuları hələ "divanxana"nın həyətində və həmçinin, yeraltı pir "Süd quyusunu" görürük. Belə çıxır ki, bütün bu tikililər

elə qoyulmuşlar ki, bu quyular və yer altı pir doldurulmasın və dağıdılmasın.

Qeyd olunan fikirlər həqiqətə uyğundur lakin, onların arasında pir sayılan "Süd quyusu" digər quyulardan fərqli olaraq "quyu" kultunun əsl nümunəsi kimi ortaya çıxır. Yenə həmin kitab Ç.Leviatov adlı tədqiqatçının bu barədə qeyd etdiyi fikirlərdən məlumat verir: "Yeri gəlmişkən qeyd edək ki, inqilabaqədərki dövrdə müsəlman əhalisi arasında belə inam var idi ki, təsvir olunan gümbəzşəkilli otaq və ya divanxananın həyətində yerləşən quru quyulardan biri südünü itirmiş zahi qadınlara süd qaytarmağa qadir olan möcüzəli qüvvəyə malikdir. Bu quyu "süd quyusu" adlanır.

Beləliklə, qeydlərdən görünür ki, Şirvan türklərinin rəmzi xüsusiyyətlərində bəzi kultların hətta İslami dövrdə də yaşaması davam etmişdir.

Quyu kultu türklərin inanc sistemində nədir və nə kimi rəmzlər daşıyır və nə qədər əhəmiyyətlidir?.

Bu kult digər xalqlarda da vardır lakin, türklərin inanc rəmzləri sırasında daha fərqli özəllikləri ilə fərqlənir. Hətta bu özəlliklər türklərin etnoqrafik sənət növlərində də yaşamaqdadır. Çünki, "quyu" bir neçə xüsusiyyəti ilə Dekorativ Tətbiqi sənət növlərimizdə yer alır və müxtəlif memarlıq inciləri hesab etdiyimiz pirlərin və sarayların tikilməsinin ana ünvanına çevrilir.

Qeyd olunan elementlər bəzi xalçaların kompozisiya quruluşunda bəzən əsas, bəzən isə bağlayıcı element kimi istifadə olunur. Onların arasında ən məşhurları "Bakı göl" və "quyu haşiyə"adlı elementlərdir ki, bizlərə qədim türklərin "quyu" kultuna bağlılığlarını əks etdirir. Eyni zamanda çox maraqlıdır ki, altı bucaqlı göl elementinin istər, "Bakı" istərsə də Bakı ətrafı kəndlərə məxsus Novxanı, Görədil və digər xalçaçılıq ocaqlarında toxuması heç də təsadüfdən deyildir. Çünki, altı bucaqlı "göl" elementləri özünəməxsus formada həll edilərək bir az uzadılmış olur ki, bu da təbiətdəki göldən fərqli olaraq, "quyu" timsalında öz əksini tapır.

L. Kərimov xalqdan topladığı məlumatlara əsaslanaraq "quyu" elementlərinin digər adlarını da qeyd etmişdir. Məsələn;

“quyu haşiyə” elementini xalq tərəfindən “Kankan” (yəni kimsə quyu qazır mənasındadır).adlanması da bu cür nümunələrdən hesab oluna bilər. Burada təsvirdəki elementin quruluşuna baxdıqda görürük ki, “quyu”nun qazılması üçün istifadə olunan “çarx” “təkər” təsviri, “kvadrat” və onun mərkəzində “quyu” elementi verilmişdir.

Tağların tağüstü hissələrinin bəzənməsi ilə yanaşı onların daha da baxımlı həddə gətirilməsi üçün yenə həmin tağların ətək hissəsindən tağüstü hissənin son hissəsinə qədər haşiyə (yelən) qurşağının olması Şirvan Şahlar sarayı tağlarının bədiiləşməsinə səbəb olmuşdur.

Ümumiyyətlə, pir, dini baxımdan simvolik məna kəsb edir. Yəni ilahi məzmunun bir növ rəmzidir. Bektaşi inancında məscid də pir kimi qəbul edilir və “Allahın evi” şəklində ifadə olunur. Şirvan Şahlar sarayının da memarlıq məzmununda qeyd edilən mülahizə və fikirləri açıq aydın görmək o qədər də çətin deyil. Çünki, əcdadlarımız müqəddəsliyin necə qorunması üsullarını çox qədimdən dərk etmiş, öyrənmiş və möcüzəli tikililərlə dünyaya tanıtmışlar. Və həmin tikililər o qədər gözəl və əfsunedici olmuşdur ki, hətta onun tanrıdan başqa inanc mənbələrini belə kölgədə qoymuşdur.

Doğurdan da bu gün böyümüş şəhərimizin səs küyündən uzaqlaşaraq, Şirvan Şahlar sarayına daxil olan sanki, bir daxili sakitlik, şüurlu qapanma və ruh dincliyini hiss edirik . Bunun səbəbi isə bu yerin təkcə muzey kimi olması ilə bağlı deyil. Çünki, tarixinmizi və inancımızı qoruyanların müqəddəs əməl və ruhlarını bu yerlərdə hiss etməmək mümkün deyil. Bu mühitdə mədəniyyətimizin və inanc yaddaşımızın nə qədər möhtəşəm olduğunu dərk edirik. Məncə Şirvan Şahlar sarayı təkcə saray anlamında və ya tarixi tikili olaraq araşdırılmamalıdır. Onun əsrlərlə kodlaşmış inanc və semantik məcmuəsini daha dərindən təhlil etmək xalqımızın tarixi yaddaşının bəsitləşməsinə təkan verə bilər. Bu baxımdan yazdığım məqalə bir xalçaçı – rəssam kimi məfkurəmdən gələn və apardığım elmi müşahidələrimin nəticəsi kimi görülən araşdırmaların bir zərrəsi hesab etmək olar.

**Samir Məmmədov**
**tarix üzrə fəlsəfə doktoru**

# AZƏRBAYCAN ŞİRVANŞAHLAR DÖVLƏTİNDƏ HƏRB SƏNƏTİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ (IX-XI ƏSRLƏR)

861-ci ildə Şirvanın ərəb canişini Heysəm ibn Valid Ərəb Xilafətindəki siyasi böhrandan istifadə edərək müstəqil Şivanşahlar dövlətini yaratdı. Yeddi əsrə yaxın yaşamış bu dövlət (861-1538-ci illər) tədricən bütün Cənubi Qafqazın ən böyük və nüfuzlu, müəyyən tarixi məqamlarda tam müstəqil feodal dövlətinə çevrildi. Bunun səbəblərindən biri Şirvanşahların müsəlman hərb sənətinin qayda-qanunları əsasında təşkil etdiyi güclü hərbi potensiala arxalanaraq əsaslı dövlət siyasətini həyata keçirməsi olmuşdur. Belə hərbi potensialın formalaşmasında ərəb Rəbiə tayfasının rolu inkar edilməzdir. Azərbaycan və Arranın istilasından sonra burada yerləşdirilmiş bu və digər ərəb tayfaları döyüşkənliyi, mərdliyi və mübarizliyi ilə seçilirdilər. Ərəb yarımadasının səhralarında dünyaya göz açmış və çətin çöl şəraitində böyümüş bu insanlar hərb həyatının hər bir çətinliyinə dözməyi bacarırdılar. Şirvanşahlar dövlətinin ilk çağlarında onun ordusu, sərhəd qoşunları, hərbi donanması ilk növbədə ərəblərdən təşkil olunmuşdur.

Şirvanşahlar dövlətinin IX-XI əsr tarixinə dair son dərəcə qiymətli mənbə olan "Şirvan və Dərbənd tarixi"ndə göstərilir ki, xəlifə Harun ər-Rəşid (786-809) Şirvanın, Ərməniyyənin, Azərbaycanın və Dərbəndin ərəb hakimi Yəzid ibn Məzyədi xaricilərə (xəvariclərə) qarşı qoşunun üzərində komandan təyin edərkən ona Peyğəmbərdən (s.a.v.) Hz. Əliyə (ə.) hədiyyə edilmiş zülfiqar qılıncını verərək döyüşə göndərmiş və Yəzid ibn Məzyəd qələbə çalmışdır . Yəqin ki, bu çox simvolik və mənadaşıyıcı faktdır.

Məlum olduğu kimi, hərb sənəti müharibə aparma məharətidir, düşmən üzərində qələbə çalmaq bacarığıdır. Hərb sənətinin

müxtəlif sahələri olan hərbi strategiya, hərbi taktika, əməliyyat sənəti o dövrdə hərb sənətinin ayrıca sahələri kimi ayrılmamış və heç belə də adlanmamışdır. Lakin bu sahələri tənzimləyən müəyyən müddəalar müasirlərə həm nəzəri, həm təcrübə baxımdan yaxşı məlum idi. Şirvanşahlar dövləti müsəlman dövləti kimi təşkil olunduğundan, burada rəsmi dövlət dini İslam olmuş, dövlət və ordu quruculuğu bu dinin ehkamları əsasında qurulmuşdur. Həmçinin müharibə aparma qaydaları da, yəni hərb sənəti bütövlükdə dini-hüquqi müddəalarla tənzimlənmişdir. Bu xüsusiyyət isə müsəlman hərb sənətini başqalarından köklü şəkildə fərqləndirir.

Müsəlman hərb sənətinin nəzəriyyəsi, yəni bu sənətin hərbi-strateji, hərbi-taktiki, hərbi-hüquqi və s. aspektlərinin əsasları Qurani-Kərim və Muhəmməd Peyğəmbərin (s.a.v.) Sünnəsində, bir çox başqa hədislərdə əks olunmuş və orta əsr müsəlman hərb nəzəriyyəçiləri tərəfindən, ilk növbədə dahi alim, böyük sərkərdə və strateq, misli-bərabəri olmayan döyüşçü Hz. Əli ibn Əbu Talibin (ə.) (656-661) hərbi məsələlərə həsr olunmuş əsərlərində, onun hərbi fəaliyyətində bu mühüm müddəalara istinad etməklə işlənilmişdir. Biz bu məlumatları sonrakı dövrlərdə yazıya alınmış hədislərdən və digər dini-tarixi mənbələrdən əldə edirik. Ona görə də, Azərbaycanda orta əsrlərdə müsəlman hərb sənətinin problemləri araşdırılarkən, ilk olaraq bununla əlaqədar olan Peyğəmbərimiz Hz. Muhəmmədin (s.a.v.) və Hz. Əli (ə.) buyurduqları, göstəriş və tövsiyyələri tədqiq olunmalıdır. **Şirvanşahlar dövlətində türk etnosu çoxluq təşkil etdiyindən, burada uzun müddət həm də türk adət hüququ - törə də tətbiq edilmişdir. İslam hüququnda və türk törəsindəki hərbi müddəalar** orta əsrlərdə Azərbaycanda və türklərin yaşadıqları başqa ərazilərdə müsəlman hərb sənətini vəhdət şəklində formalaşdırdı, beləliklə, müsəlman hərb sənəti türk savaş sənəti ilə sintezdə, vahid şəkildə bir araya gəlmiş və burada Hz. Əlinin (ə.) hərb məktəbi faktoru böyük rol oynamışdır

Qeyd edilməlidir ki, Şirvanşahlar öz hərbi fəaliyyətində həmin dövrlərdə Ərəb Xilafətində qəbul olunmuş hərbi nəzəriyyənin

müddəalarını əsas götürürdülər. Bununla da dövlətin və ordunun bütün hərbi-dini fəaliyyətini müəyyənləşdirir və hərbi strategiyasını məhz bu istiqamətdə həyata keçirirdilər. Şirvanşahlar dövlətinin belə hərbi-dini siyasəti tədqiq olunan dövrün mənbələri ilə təsdiq olunur. Məsələn, "Tarix əl-Bab"ın məlumatları bununla əlaqədar böyük maraq doğurur. Belə ki, Şirvanşahlar mütəmadi olaraq imkan daxilində "kafirlərə qarşı cihad" aparmışlar və mənbədə bu onların bir vəzifəsi kimi təqdim olunmuşdur.

Müsəlman hərb sənətindən bəhs edərkən şəhidlik haqqında da deyilməlidir. Şəhidlik statusu islamda xüsusi yer tutur. Allah yolunda canını əsirgəməyib fəda etmiş, həlak olmuş şəxs şəhid hesab edilirdi. Müsəlman alimi İbn Qayyim əl-Cövziyyə (XIV əsr) qeyd edir ki, şəhidlik Allah qatında Allah dostlarının ən uca mərtəbəsidir. Şəhidlər də Allahın qulları arasında ən seçkinləri və ən yaxınlarıdır. Şəhid Allah sevgisi və rizası üçün öz canını Allah yolunda fəda edən şəxsdir .Şəhidlik statusunun xüsusiliyi Qurani-Kərimdə belə buyrulmuşdur: "Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz". **Şəhidlik statusu yalnız bilavasitə döyüşdə və ya ribatda döyüş növdəsində öldürülənlərə şamil edilmirdi və onun dairəsi daha geniş idi. Belə ki, başqa səbəblərdən, məsələn, hansısa xəstəlikdən də ölmüş şəxs şəhid hesab edilirdi.**

**Dilavər Əzimli**
**tarix üzrə fəlsəfə doktoru**

# ŞİRVAN ƏRAZİLƏRİNDƏ DİNİ HƏYAT TARİXİNƏ DAİR

Şirvan ərazilərində dini həyatın öyrənilməsinə ayrıca bir tədqiqat əsəri həsr olunmamışdır. Bu məsələ Şirvanın tarixini öyrənən zaman aktuallıq kəsb etmiş və tədqiqatçılar tərəfindən ayrı-ayrı dövrlərdə Şirvanda dini həyat barədə məlumatlar verilmişdir. Bəllidir ki, Şirvan əraziləri dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olmaqla, Azərbaycan coğrafiyasında xüsusi önəmə malikdir. Böyük ticarət yollarınn üzərində yerləşən Şirvan əraziləri ta qədimdən başlayaraq zəngin mədəni irsə sahib olmuşdur.

Azərbaycanın Şirvan ərazilərinin tarixi üçün öyrənilməsi vacib olan sahələrdən biri də dini həyatdır. Bir daha vurğulayaq ki, Şirvan ərazilərindən tarixən ən mühüm ticarət yolları keçmiş və beynəlxalq ticarətdə bu ərazilərin böyük rolu olmuşdur. Bu ərazilər olduqca məhsuldar ərazilər idi. Müxtəlif dövrlərdə ərazilərə ya məcburi, ya da könüllü şəkildə daima insan köçləri baş vermişdir. Bu baxımdan tarixən bu ərazilərdə ciddi etno-siyasi-dini proseslər getmişdir. Buna uyğun olaraq da dini təsəvvürlərdə müxtəliflik özünü göstərmişdir: tanrıçılıq, zərdüştülük, bütpərəstlik, xristianlıq, islam və s....

Şirvan ərazilərinin coğrafiyası orta əsr mənbələrində aydınlıqla əksini tapmışdır. Orta əsrlər mənbələri Xəzər dənizinin qərb sahilində, Kürdən şərqdə yerləşən, qədim Qafqaz Albaniyasının, yaxud erkən orta əsrlər Arranın bir hissəsi olan vilayəti Şərvan və ya Şirvan adlandırırdılar.

Tarixin tədqiqi göstərir ki, islamın ölkəmizdə yayılmasına qədər Azərbaycan ərazilərində dini müxtəliflik mövcud idi. Düzdür, bu məsələ kompleks halında öyrənilməsə də, ayrı-ayrı monoqrafiya və məqalələrdə qısaca olaraq əksini tapmışdır. Dünya

tarixində özünün silinməz izini qoymuş Şirvanşahlar dövlətinin həyatında dinin rolu çox yüksək idi. Bu gün Şirvanşahlardan yadigar qalan ərazilərdə türbələrin, pirlərin, qədim tarixi abidələrin çoxluğu bunu sübut edir. Şirvan əraziləri türbələrlə, pirlərlə, tarixi abidələrlə əhatə olunmuşdur. Ərəb istilasınadək Azərbaycanda rəsmi dini dünyagörüşləri olan atəşpərəstlik (Azərbaycanda əslində, təktanrıçılığa söykənən tanrıçılıq dini olub. Atəşpərəstlik isə zor gücünə Sasanilər tərəfindən yayılmağa başlanıb-D.Ə.) və xristianlıqdan əlavə bəzi digər dini əqidələrə (məsələn, şamanizmə və b. Şamanizm isə elə tək tanrıçılıqdır-D.Ə.) tapınanıar da vardı. İslamın yayılması ilə digər dini əqidələr aradan qalxmağa başladı. Bunun bir səbəbi də Azərbaycanda daima təktanrıçılığa olan meyllə bağlıdr. Bu məsələ İslamın Azərbaycanda yayılmasında müstəsna rol oynadı. Bundan əlavə, İslamın keçmiş etiqadlara nisbətən mütərəqqi cəhətləri, xüsusən azadfikirlilik meyllərinə dözümlülüyü ona qarşı rəğbəti artırırdı. Bununla yanaşı, əvvəlki dini əqidələr birdəfəlik yox olmamış, özünün bir sıra müddəalarını və prinsiplərini xalq adət-ənənələrinə qoşaraq əsrlər boyu yaşamışdır. Ölkədəki maddi mədəniyyət abidələri-atəşgahlar, alban kilsələri də keçmişlə bağlılığı möhkəmlətmişdir. Əski etiqadlar zehinlərdən tamamilə silinməmiş, bəzən siyasi hərəkatda açıq şəkildə, bəzən də rəsmi ideologiya ilə bir araya sığmayan bidət formasında təzahür etmişdir . Şirvanşahların məşhur tədqiqatçısı Sara xanım Aşurbəyli yazmışdır ki, "Ərəb istilasına qədərki erkən Şirvanşahlar haqqında məlumatımız yoxdur. Rəşidəddin (1247-1318-ci illər) "Məkatibat"nda oğlu Əli üçün nişanladığı Şirvanşah qızı haqqında danışarkən göstərirdi ki, Şirvanşahlar Dərbənd hökmdarları nəslindən olan qədim xanədandır.

İnsan dünyaya gələndən onun dini inancı formalaşmışdır. Bunu sübut edən arxeoloji materiallardır. Şirvan ərazilərində tapılan arxeololi materiallar burada yaşayan xalqın ən qədim dini inanclarından xəbər verir. Xüsusilə, Şirvan ərazisində insanı təsvir edən monumental daş heykəlinin meydana gəlməsi böyük maraq doğurur. XI əsrdən başlayaraq Şirvanşahların həyatında bir

canlanma baş verdi. Artıq XI əsrin sonunda isə Şirvanda siyasi yüksəlişin başlanğıcı nəzərə çarpırdı. Bu yüksəliş XII əsrədək davam etdi. XII yüzildə Şirvanşahlar dövləti özünün çiçəklənmə dövrünə qədəm qoydu. Şirvanşahlar dövləti XII əsrin sonunadək Azərbaycan ərazisində mövcud olmuş ən güclü siyasi qurum olmuşdur (bir sıra hallarda qonşu dövlətlərdən formal asılıqda olmasına baxmayaraq). Bu dövlət ölkənin müəyyən qisminin mədəni, ictimai-iqtisadi, siyasi təkamülü prosesinin fasiləsizliyini təmin etmişdir. XI-XII əsrlərdə Azərbaycanda ictimai-siyasi, dini, dini-fəlsəfi və elmi-fəlsəfi baxışlar keçmiş ideyalar zəminində yaranıb formalaşmışdır. İslam dini burada hakim ideologiya olsa da, digər dini əqidələr tamamilə aradan qalxmamışdı. Arranın bəzi yerlərində xristianlıq rəsmi şəkildə fəaliyyət göstərirdi.

Bu kiçik məqalə ilə Şirvanşahlarda dini həyatı təqdim etmək mümkün deyildir. Təbii ki, min illik tarixi olan Şirvanşahları dini həyatını bir məqalə ilə təqdim etmək mümkünsüzdür. Lakin müəyyən aydınlıq gətirməyə çalışdıq. Sonda ona da vurğulayaq ki, Şirvanşahlarda daima dini tolerantlıq olmuş və qədim inanclara, adət-ənələrə saygı ilə yanaşılmışdır. Bu gün ərazilərdə insanların dinlərə və dini inanclara layiqli münasibəti yazdıqlarımızı təsdiqləyir.

**Fəxrəddin Miralay**
**memar**

# ŞİRVANŞAHLAR SARAYI KOMPLEKSİNİN MEMARLIĞINDA HUMANİZM ELEMENTLƏRİ

Bəlli olduğu kimi, bütün xalqların memarlığında komplekslərin və memarlıq ansambllarının yaranmasında müəyyən həndəsi qaydalar mövcud olub. Bu qaydalar başlıca olaraq dominant elementdən (yəni, ansambl yaradan faktordan) və ona tabe olan simmetriya oxundan, həmçinin, tərtib elementlərindən ibarət olublar.

Bir çox hallarda müxtəlif vaxtlarda tikilmiş memarlıq abidələrinin toplusu ansambllar kimi təqdim edilir. Lakin, ansambl o vaxt yaranır ki, onu tərtib edən elementlər arasında kompozisyon (miqyas, mütənasiblik və s.) və stilistik əlaqə olsun. Antik və orta əsr komplekslərinin yaranmasında həndəsədən və astrologiyadan geniş istifadə olunurdu.

Bununla belə, heç bir halda ansambllarım yaranmasında insan faktoru nəzərə alınmırdı. Doğrudur, bəzi avropalı alimlər Roma-Yunan memarlığında insanın bədən ölçülərinə mütənasib olan formalardan bəhs edirlər. Klassik dövr abidələrində mütənasiblik insan vücuduna bağlı olsa da, onların miqyası insani deyildi. Sanki, həmin tikililər Tanrılar və Titanlar üçün tikilmişdir. Hətta, bəzi Avropa abidələrinin tikilmə müddəti də bir insan ömründən qat-qat çoxdur. Bəzən abidə 250-300 ilə tikilə bilirdi. Əslində isə həmişə istər sifarişi, istərsə də icraçı yaratdığı abidəni görmək və ondan istifadə etmək arzusunda olur.

XX əsrin ortalrında isə Le Korbuzye özünün «Modulor» əsəri ilə müasir erqonomikanın əsasını qoydu. Onun memarlıq yaradıcılığında demək olar ki, hər şey (bütün həcmlər və fəzalar) insanın anatomik ölçülərinə tabe idi. Qürur vericidir ki, Avropanın XX əsrdə anladığını Azərbaycan memarları artıq

XV əsrdə həyata keçirmişdilər. Bunu Şirvanşahlar Sarayının timsalında daha aydın görmək olar. Bilindiyi kimi, qapılar iki fərqli məkanın əlaqələndirilməsi funksiyasını daşıyırlar. Odur ki, onların ölçüləri də uyğun olaraq ondan istifadə edənin (İnsanın) anatomik və psixofizioloji xüsusiyyətlərinə tabedirlər. Şirvanşahlar Sarayı qapılarının həndəsi quruluşuna baxsaq, insanın silueti və qapı boşluğunun abrisi arasında miqyas və erqonomik bənzərlik görərik.

Sarayın memarı qapılardan o qədər məharətlə istifadə edib ki, onları vizual qavram nöqtələrinə çeviə bilib. Qavram nöqtəsi abidə barəsində maksimum informasiya əldə edilən yerdir. Aşağı həyətin giriş qapısından keçən anda, (yəni, tam qapının içində) Şah türbəsi bütöv olaraq qavranır. Burada görmə bucağı 57 dərəcəyə bərabər olur ki, bu da insanın horizontal görmə və qavrama bucağına bərabərdir. Bu nöqtəyə əsasən memar darvazanın yan divarlarının qaborit ölçülərini elə təyin etmişdir ki, türbənin silueti darvaza tağının abrisinə ideal dəqiqliklə otursun.

Eyni hala türbənin portalı altında da rast gəlirik. Burada isə portalın tam ortasından baxarkən Şah məscidi 57 dərəcə bucaq altında tam bütövlüyü ilə görünməkdədir. Məscid portalının altında isə türbə 57 dərəcəlik qavram fəzası içərisinə daxil olur. Eyni görüş bucağı Divanxananın həyətində qərb tərəfdəki qapıdan baxarkən baş verir.

Memar Şirvanşahlar Sarayının memarlığında hər şeyi İnsana tabe etsə də, Allahın adını da unutmamışdır. O, Şah məscidinin mehrabına batini dillə (həndəsə və əbcəd vasitəsi ilə) «Allah» yazmışdır. Əbcəd hesabına görə ALLAH sözü rəqəmsal anlamda 66-ya bərabərdir. Mehrabın hündürlüyü 11 gəz, eni isə 6 gəzdir. Sahəsi 66 kvadrat-gəzdir.

**Rahibə Əliyeva**
**memarlıq üzrə fəlsəfə doktoru, dosent**

# ŞİRVANŞAHLAR SARAYINDA BƏRPA VƏ KONSERVASİYA İŞLƏRİ

Tarixi abidələrimizin qorunub saxlanması və bərpası məqsədilə dövlət səviyyəsində silsilə kompleks tədbirlər həyata keçirilir. Qədim İçərişəhərdə yerləşən abidələrin konservasiyası və bərpası istiqamətində görülən işlər də bu tədbirlərin tərkib hissəsidir. Maddi mədəniyyət nümunələrinin mühafizəsinə və təbliğinə həssaslıqla yanaşan ölkə Prezidenti və Heydər Əliyev Fondu Azərbaycanın tarixi memarlıq ənənələrini və irsini dolğun şəkildə əks etdirən İçərişəhərdə aparılan təmir və bərpa işlərinə də öz dəstəyini əsirgəmir.

İçərişəhərin "üzük qaşı" olan Şirvanşahlar sarayı özünün unikallığı, bədii-memarlıq xüsusiyyətləri, gözəl silueti, Şirvan-Abşeron memarlıq məktəbi nümunəsinin həlli kimi digər tikililərdən seçilir. Şirvanşahlar sarayı kompleksinin qorunub saxlanılması ölkəmiz üçün, onun tarixinin əsrlərdən süzülərək sabaha çatdırılmasında böyük əhəmiyyət kəsb edir. Sarayın başı üstünü dəfələrlə qara buludlar alsa da, bu təhlükələr sovuşmuş, tariximizin yadigarı  bu gün renovasiya tədbirləri keçirilməklə öz həyatını yaşamaqdadır.  Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra, 1850-ci illərdə çar höküməti Bakıda, İçərişəhərin ərazisindəki ən hündür yerdə Aleksandr Nevski adına kilsə ucaltmağı qərara alır. İçərişəhərdə yüksək relyefdə Şirvanşahlar sarayı yerləşdiyi üçün, kilsə məhz saray ərazisində tikilməli idi. Beləliklə, saray daxilində kilsə inşası üçün torpaq işləri başlandı. Lakin küllü miqdarda maddi-mədəniyyət nümunələri aşkar olunduğuna görə iş dayandırıldı. Bu ərazidə arxeoloji tədqiqat işləri aparmaq üçün akademik V.V.Bartold Bakıya dəvət olundu. O, Şirvanşahlar sarayının ərazisində qısamüddətli, lakin geniş arxeoloji tədqiqat işləri aparmış, kilsənin saray ərazisində inşasının məqsədəuyğun olmadığını bildirmişdi. Beləliklə tariximiz xilas olunmuşdur.

31 may 1999-cu il tarixində Azərbaycan Respublikasının hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış Kredit Sazişinə əsasən, Dünya Bankı dörd memarlıq abidəmizin – “Möminə xatın”, “Qarabağlar” türbələri, Şəki Xan Sarayı və Şirvanşahlar Sarayının bərpasına kredit ayırmışdır. Həmin qurum Şirvanşahlar Sarayının II mərtəbəsinin bərpası üzrə elan edilmiş tenderdə qalib gəlmiş, bu işlərin görülməsi məqsədi ilə onunla 2002-ci ilin fevralında müddəti 2 il 3 ay olan kontrakt imzalanmışdır. Beynəlxalq İnkişaf Assosiasiyası bütün bu işlərin koordinasiya edilməsi məqsədilə Mədəni İrsin Qorunması Layihəsinin İşçi Qrupunu yaratmışdır. Bərpa işləri mərhum memar-professor Niyazi Rzayevin tərtib etmiş olduğu layihə əsasında həyata keçirilmişdir. 5 noyabr 2004-cü il tarixində XV əsr mədəni irsimizin tacı olan Şirvanşahlar Sarayının II mərtəbəsinin başa çatmış bərpasının təqdimat mərasimi keçirilmişdir.

Əsrlərlə ətraf tikililərlə harmoniyada həllini tapmış saray kompleksi məğrurluq sinvolu kimi bu gün də turistlərin diqqət mərkəzindədir. Lakin saray kompleksi, onun mühafizə zonasında müstəqillik illərində inşa olunmuş səfirlik binaları və yaşayış tikililərinin təsiri ilə bu estetik dəyərini itirmişdir.

1. Hər şeydən əvvəl abidənin mühafizə zonası dəqiqləşdirilməklə ətrafda yalnız landşaft həllinə diqqət ayrılmalıdır.

2.Tarixən Şərq dünyasında “İç qalalar”ın müdafiə divarları ilə əhatə olunması faktını əsas götürərək, saray kompleksi ətrafında arxeologi qazıntıların aparılması mütləqdir.

3.Abidədə dağıdıcı xarici təsirləri nəzərə alaraq mütəmadi olaraq monitorinqlər keçirilməklə təmir-bərpa işlərinin aparılması nəzərdə tutulmalıdır.

**Qənirə Pirquliyeva**
**tarix üzrə fəlsəfə doktoru**

# ŞİRVANŞAHLARIN BAKI SARAYI - KÜLLİYYAT, YOXSA XANƏGAH?

## (faktlar, arqumentlər və mülahizələr)

Şirvanşahlar dövlətinin memarlıq abidələrinin "şahı" sayılan saray kompleksinin özünəməxsus xüsusiyyətləri –tikilmə tarixi, üslubu, bəzək elementləri, epiqrafik yazıları hələ XIX əsrin sonlarından başlayaraq, elm adamlarını, görkəmli şərqşünasları, memarları, tarixçiləri özünə cəlb etməkdədir. Rusiya İmperiyalarının işğalları prosesində hərbçilər buranı sadəcə saray, yaxud "Xan sarayı" adlandırmışlar. Yerli insanlar bu gün də sevə-sevə buranı saray adlandıraraq, məmnuniyyətlə ziyarət edirlər. Dediklərimizi sübuta yetirmək üçün yüzlərlə elmi sitatlar, iqtibaslar göstərmək olar. Onlardan ən dəqiqi mərhum alim Sara Aşurbəylinin qələmə aldığı" Şirvanşahlar dövləti" və " Bakı şəhərinin tarixi" adlı monoqrafik xarakterli, akademik məzmunlu elmi əsərlərdir ( 3;4;).

Müstəqillik dövrünün elm aləminə gətirmiş olduğu "yeni təsir"lərdən biri də keçən iki yüz ildə-XIX və XX sərlərdə alimlərin yazmış olduqları tarxi əsərlərə şübhə ilə yanaşmaq və "bu yazılanın səhv olması" kimi qorxulu ideyaların cəmiyyətimizdə yaranması və yayılmasıdır. Sözsüz ki, mükəmməl ali təhsilli tarixçilər bu cür, birdən birə hər yazılanların üstündən qələm çəkmirlər. Amma sosial etnoloji baxımdan diqqətlə nəzər yetirdikdə və məşhur alim Levi Stossun dediyi " XXI əsr humanitar elmlərin zamanıdır" kimi ifadəni yada saldıqda, belə cərəyanların əsil məqsədinin xalqın tarixindən uzaqlaşdırılması kimi cəhdləri görmək mümkündür. Bu proses yalnız ölkəmizə, və ya təkcə Şirvaşahlar dövlətinin saray kompleksinə aid deyildir. Keçmiş postsovet məkanında "yeni peyda olmuş", tarixçilərdən başqa, cürbəcür sənət və ixtisas sahibləri tarixə sanki "hücüma" keçiblər.

Şirvanşahların İçəri Şəhərdəki saray kompleksi əsil saray kompleksidir. Buranın inşası XII əsrdən başlamış və təxminən 150-200 ilə tamamlanmışdır. Sadə quruluş-hələ kasıblıq əlaməti deyildir. Sadəlikdə olan möhtəşəmlik abidələrdəki stalaktit bəzəklərdə, düzgün relyef quruluşunda, dəqiq ölçülərdə və dayanıqlılıqda özünü göstərməkdədir. Azəırbaycanda sözsüz ki, bütün zamanlarda paytaxtların hansı şəhərd olmasından asılı olaraq və iqamətgahların yerləşməsinə görə sarayların sayı müəyyən qədər olmuşdu. Amma təəssüf ki, bu günkü coğrafiyada bizə çatan yeganə saray kompleksi buradır. Bizim buranı saray kimi deyil, dini xarakterli xanəgah, yaxud məzarlıq kimi tanıtmağımız bizlərə çox ziyan verə bilər. Bizim dövlətçilik tarixində Şirvanşahlar dövlətinin çox böyük əhəmiyyəti vardır. Bu gün bizlərin bu dövlətin əhəmiyyətini kiçildərək sadəcə dini mərkəz kimi tanımağımızın heç bir elmi əsası yoxdur.

**Rəna Rzayeva**
**"Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq qoruq-muzeyinin direktoru**

# ŞİRVANŞAHLARIN BAYRAQLARINA DAİR ARAŞDIRMALAR

Qədim tarixə malik Azərbaycan zəngin dövlətçilik ənənələrinə malikdir. Hələ qədim dövrlərdən – e.ə. III minilliyin I yarısından yaranmış dövlətçilik ənənələrimizin 5 min il yaşı vardır. Orta əsrlərdə inkişaf etmiş dövlətçiliyimizin ənənələri çərçivəsində Azərbaycan ərazisində bir çox dövlətlər yaranmışdır: Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Atabəylər, Qaraqoyunlu  və Ağqoyunlular, Səfəvilər. Təəssüflər olsun ki, sadalanan bu dövlətlərin əksəriyyətinin bayraqları necə olmuşdur, bu bizə məlum deyildir. Hər şahın bir və ya bir neçə bayrağı olardı. Bayraq və ya sancaq bir dövlətin, bir millətin rəmzi olaraq istifadə edilər, xüsusi rəng, ölçü və formalara malik olardı. Türklər sülh və savaş zamanı, mərasimlərdə müxtəlif rənglərdə bayraqlar işlədərdilər. Fəqət bu rənglərin də ayrı-ayrı anlamları vardı. Əvvəllər hökmdarların şəxsi simvolları olan bayraqlar, zaman keçdikcə dövləti ifadə etməyə başlamışdı. Tarixdəki Türk dövlətlərində dövləti və hökmdarı təmsil edən bayraqlar olduğu kimi, ordu birliklərini və sərkərdələri təmsil edən sancaqlar da istifadə edilmişdir.

Bu gün hələ ki, orta əsr ədəbi irsimizi, mənbələri araşdırıb tədqiq etməklə, Şirvanşahların XII və XV əsr bayraqlarının necə olduqlarını aşkar etmişik. Orta əsrlərdə Şirvan bir mədəniyyət mərkəzi kimi məşhurlaşmışdı. Şirvanşahlar elmli, savadlı dövlət xadimləri olduqlarından elmə, sənətə və poeziyaya himayə edir, dövrlərinin görkəmli alim və sənətkarlarını, istedadlı şair və nəqqaşlarını öz sarayları ətrafına cəlb edirdilər. XII əsrdə hökmranlıq etmiş belə şahlardan biri də Şirvanşah III Mənuçöhr

idi. Onun dövründə sarayda toplaşmış şairlərə istedadlı sənətkar Əbül-Üla Gəncəvi başçılıq edirdi. Əbül-Üla Şirvanşahlar Sarayında Məliküşşüara – şairlər şahı ləqəbi ilə məşhur idi. Onu şairlər ustadı adlandırırdılar. 16 il sarayda yaşamış Əbül-Üla Gəncəvi Xaqani və Fələki kimi şairlər yetişdirmişdi.( Ziya Bünyadov, Azərbaycan Atabəyləri dövləti, elektron variant, Bakı, 2007, səh.207 )

Məlum olduğu kimi, Şirvanşahların XII əsr dövrünü işıqlandıran əsas ədəbi mənbələr saray şairlərindən Xaqani və Fələkinin əsərləridir. Əfzələddin Xaqani 1120-ci ildə Şirvanın Məlhəm kəndində sənətkar ailəsində anadan olmuşdur. İlk təhsilini dövrünün məşhur alimlərindən olmuş əmisi Ömərdən almışdır. Ömər ona, yalnız dövrünün elmlərini öyrətməklə kifayətlənməmişdi, eyni zamanda Əfzələddinin şeirə olan marağını görüb, onu şeir sənətinə həvəsləndirmişdi. Mükəmməl təhsil alıb bir şair kimi tanınmağa başlamış Əfzələddin Xaqani ərəb dilindən tərcümədə həqiqətlər mənasını verən Həqaiqi təxəllüsü ilə bir zamanlar qəzəl və rübailər yazmışdır. Sonralar Əbül-Üla tələbəsinin qabiliyyətini görüb, onu Şirvanşah Mənuçöhrə təqdim etmiş və Əfzələddinə Xaqani adını vermişdi.

Bayrağın üzərində şir təsvirinin olması heç də təsadüfi deyildir. Ehtimal ki, şir təsviri Şirvanşahlar dövlətinin gerbində bir element olmuşdur. Bu təsvirə Şirvanşahlar Sarayının qapıları üzərində (Engelbert Kempfer, 1683-cü il), Bakının qala divarlarında (XII əsr), Şirvanın digər ərazilərində, o cümlədən Dərbənd abidələrində rast gəlinmişdir. İbn əl-Fəqih əl-Həmədaninin təqribən eramızın 903-cü ilində yazılmış «Kitab əl-buldən» (“Ölkələr kitabı”) əsərində maraqlı məlumat verilir. Burada göstərilir ki, Dərbəndin Cihad qapılarının yerləşdiyi divardakı sütunlarda ağ daşdan düzəldilmiş şir heykəlləri durur, bundan başqa, onlardan aşağıda qoyulmuş daşlar üzərində də şir təsvirləri vardır. Müəllif daha sonra “Məsruf hovuzu” adı ilə tanınan ovdanın aşağıya enən pilləkənlərinin hər iki tərəfində şir heykəllərinin qoyulduğunu, eləcə də hökmdar evinin üzərində də daşdan qayrılmış və divardan bir qədər aralı iki şir heykəlinin boylandığını, yerli sakinlərin şirləri divarların talismanları hesab etdiklərini qeyd etmişdir.

**Sevil Məmmədova**
**"Şirvanşahlar Sarayı Kompleksi"**
**Dövlət Tarix-Memarlıq qoruq-muzeyinin**
**direktor müavini**

## ŞİRVANŞAHLARIN SARAYLARI – ORTA ƏSRLƏRİN TARİXİ REALLIQLARI VƏ ONLARI TƏSDIQLƏYƏN MƏNBƏLƏR

Azərbaycanın şimali-şərq bölgəsində artıq VI əsrin I yarısında mövcud olmuş Şirvanşahlar dövləti, onun Bakı Sarayına dair kifayət qədər monoqrafiya, elmi-populyar məqalələr yazılmış, araşdırmalar aparılmışdır. Lakin etiraf edək ki, onun öyrənilməyə yenə də ehtiyacı vardır. Dövlətin yerləşmiş olduğu Şirvan adlı tarixi-coğrafi ərazi eramızın əvvəllərində artıq sıx məskunlaşmışdı. S.Aşurbəyli mənbələrə əsaslanaraq yazır ki, Şərvan və ya Şirvan adlı şəhər Şabaran yaxınlığında yerləşmişdir və bizim eranın əvvəllərində eyniadlı vilayətin mərkəzi olmuşdur. Ehtimal ki, bu şəhərin qalıqları Şamaxıdan 4-5 km aralıqda yerləşir və Bineyi-Şirvan adını daşıyır. Şirvan yerli və beynəlxalq ticarətin əsas mərkəzlərindən idi. Onun ərazisindən mühüm karvan və dəniz yolları keçirdi. Öz feodal dövlətlərində suveren hökmdarlar olan şirvanşahlar sikkələr zərb etdirir, dəniz donanması, böyük qoşun növləri saxlayır, alınmaz qalalar, müdafiə istehkamları ucaldır, beynəlxalq ticarətdə mühüm rol oynayırdılar. Dövlətin ilk paytaxtı olmuş Şamaxı şəhəri gürcü salnaməsinin məlumatına görə, təqribən 1192-ci ildə dəhşətli zəlzələdən dağıldıqdan sonra, ehtimallardan birinə görə, Şirvanşah I Axsitan Bakını dövlətin ikinci paytaxtı etmişdi. 10 əsr ərzində öz müstəqillikləri uğrunda qəhrəmancasına mübarizə aparmış Şirvanşahlar dövlətinin bir sıra nümayəndələri görkəmli diplomat və dövlət xadimləri olmuşlar. Axsitan, Fəriburz, Şeyx İbrahim, Xəlilullah və digərləri görkəmli diplomat, dövlət başçıları olmaqla bərabər, həm də bacarıqlı

sərkərdələrdi. Təkcə şahlar deyil, onların xidmətində durmuş əyanlar da öz dövrlərinin son dərəcə savadlı, elmli və bacarıqlı şəxsiyyətləri olmuşlar. Təxminən 1190-1192-ci ildə Şamaxıda doğulmuş, 6 dil, orta əsr poetikasını, məntiqi, astronomiyanı, fəlsəfəni bilmiş, şərq ölkələrini səyahət etmiş şairin 2 divanı bu gün dünya kitabxanalarını bəzəyir. Divanlarından biri Saltıkov-Şedrin adına kitabxanada, o biri Britaniya muzeyinin kitabxanasındadır.

Görkəmli alimimiz Z.Bünyadovun qeyd etdiyi kimi, mənbələrin təhlili Şirvanın daxili həyatını təcəssüm etdirmək, Şirvanşahların fəaliyyəti haqqında nəticələr çıxarmaq imkanı verir. Məsələn, iki şahın: I İbrahimin və I Xəlilullahın dövründə saray şairi olmuş Bədr Şirvaninin "Divan"ındakı qəsidələrdən belə nəticə çıxarmaq olar ki, Şirvanşahların ölkənin müxtəlif yerlərində təmtəraqlı sarayları olmuşdur. Onlar bu və ya digər vaxtda ölkəni gəzir, lazım gəldikdə də bu iqamətgahlardan birində dayanırmışlar.

Qeyd etmək lazımdır ki, Bakı Şirvanşahlar dövlətinin əsas şəhərlərindən, paytaxtlarından biri olmuşdur. Görkəmli alimimiz Z.Bünyadov orta əsr mənbələrinə əsaslanaraq, Bakının II paytaxt olamasını XII əsrə aid edir. O öz monoqrafiyasında yazır: "Hicri 582-ci (miladi 1186-cı) ildə Şirvanşah I Axsitan atabəy Cahan Pəhləvanın ölümündən sonra Qızıl Arslanın sultanlıqda vəziyyətinin qeyri-müəyyənliyindən istifadə edərək qoşunları ilə Azərbaycan ərazisinə soxuldu. Lakin Şirvanşah ağır məğlubiyyətə uğradı. Onun qoşunları isə Qızıl Arslanın təqibi altında Bakıya çəkildi. Bu vaxtdan etibarən Bakı Şirvanşahların ikinci paytaxtı oldu. Qızıl Arslan Şamaxını və Dərbəndə qədər olan torpaqları tutdu. Bu torpaqlar bir neçə il onun əlində qaldı." XII əsrdə Bakının II paytaxta çevrilməsinin labüdlüyünü digər bir fakt da təsdiqləyir. Bu, seysmik ərazidə yerləşən Şamaxının dağılması faktıdır. Ehtimal edilir ki, Şirvanşah I Axsitan zəlzələdən sonra Bakı şəhərini öz iqamətgahına çevirmişdi və bu, heç də təsadüfi olmamışdır. Çünki paytaxt şəhəri dəyişən Şirvanşah I Axsitanın atası III Mənuçöhr tərəfindən Bakının qala divarları artıq XII əsrin əvvəllərində bərpa edilib möhkəmləndirilmişdi. Bu faktı XX əsrin 50-ci illərində qala divarlarının yarımbürclərindən birinin uçması nəticəsində aşkar olunmuş kitabə də təsdiqləyir.Belə olan halda, I Axsitanın paytaxt kimi Bakı qalasını seçməsi təbii idi.

Həm də Bakı mühüm strateji mövqeyə və əlverişli limana malik idi. Digər tarixçi alimimiz O.Əfəndiyev də öz əsərində yazır: "XV əsrdə Bakı Azərbaycanın iri ticarət-sənətkarlıq mərkəzi və Xəzər dənizindəki ən mühüm limanı idi. Şamaxı ilə yanaşı Bakı da Şirvan hökmdarlarının iqamətgahı sayılırdı. Böyük sərvətləri ilə məşhur olan Şirvanşahlar sarayı burada yerləşirdi, qızılbaş rəhbərlərinin planlarında bu sərvətlərə sahib olmağa səy göstərilməsi əhəmiyyətli yer tuturdu."

Görkəmli memar alimlərimiz Əbdülvahab Salamzadə və Elturan Avalov Şirvanşahlar Sarayının yerləşdiyi məkan ilə bağlı yazırlar: "İçəri şəhər"də ən gözəl və əlverişli nöqtəni seçməklə, memarlar saray üçün dənizə açılan mənzərəli panoramanı təmin etmiş, sarayı o dövr Bakısının şəhərsalma dominantına çevirmişdilər.1683-cü ildə sarayda olmuş, Bakının ilk qrafik təsvirini latın dilində yazmış olduğu 2 cildli kitabında vermiş alman alimi Engelbert Kempferin təsviri də bu faktı təsdiqləyir: "Şəhərin buxta üzərində yüksələn ən hündür hissəsi şah möhtəşəmliyi və qeyri-adi əzəməti ilə gözəl yonulmuş, bir-birinə elə ustalıqla pərçim edilmiş daşlardan ucaldılıb ki, onların tikiş yerləri belə sezilmi

Lakin təəssüf ki, nə həmin bürclər, nə də ala qapılar günümüzə qədər gəlib çatmamışdır. Yalnız alman təbiətşünas alimi E. Kempfer kitabında qapıların təsvirini vermiş, hər 2 qapının üzərində qarşı-qarşıya durmuş iki şir və onların arasında başqa bir heyvanın, sanki dəvə başının yerləşdirildiyini, II qapının girişi üzərində də belə fiqurun olduğunu qeyd etmişdir. Qeyd etmək lazımdır ki, iki şir və onların arasında bir öküz başının təsviri Şirvanşahlar dövlətinin gerbidir.

Həmin gerb təsvirinə Bakının qala divarlarında, Şirvanın digər ərazilərində, o cümlədən Dərbənd abidələrində rast gəlinir. Təsvirdəki şirlər Şirvanşahlar dövlətinin güc və qüdrətinin, öküz başı isə ölkədəki bolluğun rəmzi idi. İbn əl-Fəqih əl-Həmədaninin təqribən eramızın 903-cü ilində yazılmış "Kitab əl-buldən" ("Ölkələr kitabı") əsərində yerli sakinlərin şirləri divarların talismanları hesab etdikləri qeyd edilmişdir.

**Səadət Ələkbərova**
**"Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq qoruq-muzeyinin Elmi-tədqiqatlar və ekspozisiya şöbəsinin müdiri**

# ŞİRVANŞAHLAR SARAYI: SARAY VARİDATININ İZİ İLƏ...

Ulularımızdan bizə qalan müqəddəs yerlərdən biri də İçərişəhərin ən yüksək təpəsi üzərində inşa edilmiş Şirvan dövləti hökmdarlarının Bakı iqamətgahı Şirvanşahlar Sarayıdır. Azərbaycanın şimal-şərq hissəsində VI əsrdə yaranmış Şirvanşahlar dövləti Azərbaycanın tarixində çox böyük rol oynamışdır. Şirvan torpağı tarixən zəngin təbiətli ərazidə, əlverişli coğrafi mövqedə yerləşmişdir. Dövlətin ərazisi sonralar baş vermiş siyasi hadisələrlə əlaqədar gah genişlənmiş, gah da kiçilmişdi.

XI əsrdən başlayaraq Şirvanşahların həyatında, siyasi sahədə bir canlanma baş vermiş, XII yüzildə isə dövlət artıq özünün çiçəklənmə dövrünə qədəm qoymuşdu. Şirvanşahlar dövləti bəzi tarixi zamanlarda qonşu dövlətlərdən formal asılı olmasına baxmayaraq, Azərbaycan ərazisində mövcud olmuş ən güclü dövlət qurumuna malik olmuşdu. Bu dövlətin başçılarının ağıllı və düzgün siyasəti, yalnız Şirvanın deyil, bütün Azərbaycanın mədəni, ictimai-iqtisadi, siyasi cəhətdən inkişafında əvəzsiz rol oynamışdır. O dövrün səyyahları, coğrafiyaşünas alimləri Şirvanşahların Dərbənd, Şamaxı, Bakı və Kür qırağındakı saraylarının, iqamətgahlarının təsvirini verir, onların gözəlliyindən heyranlıqla bəhs edirdilər. Məsələn, Məsud ibn Namdar II Fəribürzün hakimiyəti dövründə Şirvandan çiçəklənən bir diyar kimi bəhs edirdi. Onun torpaqlarına göylərin belə həsəd apardığını, Şirvanşah və onun vəziri Əbül Fərəc Məhəmməd əl Kakuyi tərəfindən o dövrün təhsilli adamlarına göstərilən qayğı və himayəni tərifləyirdi( Z.Bünyadov. Azərbaycan Atabəylər dövləti. Bakı 2007-ci il. səh. 127).

Qərbdən Şərqə, Şimaldan cənuba qədər və əksinə istiqamətlənmiş bütün karvan yolları vaxtilə bu ərazilərdən keçirmiş. Şirvanın məşhur ipəyi, qiymətli xalçaları, nefti, duzu, zəfəranı və digər sərvətləri daim diqqət mərkəzində olmuş, bərəkətli torpaqları yadellilərin çəkişmələr meydanına çevrilmişdi.

Şirvanşahlar Sarayı Azərbaycanda orta əsr mədəniyyətinin, elminin, sənətinin və bütün mənəvi gözəlliklərin ucalığını özündə ehtiva edən yeganə saray kompleksidir. Çox təəssüflər olsun ki, qədim tariximizi, ənənələrimizi, mədəniyyətimizi özündə yaşadan Şirvanşahlar Sarayı əldən-ələ keçdiyinə, zəngin varidatı talan edilərək, müxtəlif yollarla başqa ölkələrə daşındığına, daşınmaz varidatı isə vəhşicəsinə məhv edildiyinə görə, onun saray müxəlləfatından bu günümüzə heç nə qalmamışdır. Tarixi mənbələr bu deyilənləri təkrar-təkrar sübut edir. Məsələn, XVI əsr tarixçisi Həsən bəy Rumlu o dövrdə baş vermiş müharibələr zamanı çoxlu qızıl, daş-qaş və qiymətli əşyaların saraydan çıxarılması haqqında məlumat verirdi(С.Ашурбейли. История города Баку.1982. с.166-167). Həmçinin 1538-ci ildə, Şirvanşahlar dövlətinin süqutundan sonra Gülüstan qalası və Şirvanşahların ənənəvi xəzinəsinin saxlandığı yer olan Buğurd qalası təslim alı“Şirvanşahlar Sarayı Kompleksi” Dövlət Tarix-Memarlıq qoruq-muzeyinin elmi heyəti 1000 illik tarixi olan Şirvan dövləti şahlarının Bakı iqamətgahının talan edilərək dünyaya səpələnmiş varidatının aşkara çıxarılması sahəsində geniş araşdırma işləri aparmaqdadır. Sovet rejimi dağıldıqdan, Azərbaycan müstəqil dövlət elan edildikdən sonra muzeyin beynəlxalq mədəni əməkdaşlıq əlaqələri daha da genişlənmişdir. Bu illər ərzində İstanbul şəhərinin Topqapı, Əsgəri, Türk və İslam Əsərləri Muzeyləri, Türkiyə Milli Saraylar Birliyi, Rusiya Federasiyası “Ermitaj” muzeyi, Radişev adına Saratov Dövlət Bədii muzeyi, Dərbənd Dövlət Tarixi-Memarlıq qoruq-muzeyi və s. mədəniyyət ocaqları ilə əlaqələr saxlanılmışdır. Şirvanşahların Saray kitabxanasına aid olan qiymətli əlyazmalar, hökmdar taxtı, zirehli geyimlər, divar və günbəzlərin kaşı bəzəkləri, saraydaxili həyat, saray adamları və s. haqqındakı məlumatlar damla-damla toplanmaqdadır.

Şirvanşahlar Sarayına ən böyük zərbə XVIII əsrin əvvəllərindən başlamışdı. Sarayın plan quruluşunun müxtəlif məqsədlər üçün dağıdılaraq dəyişdirilməsini sübut edən saysız misallar göstərmək olar. XVII-XIX əsrlərdə Bakıda olmuş, sarayı öz gözləri ilə görmüş səyyahlar – 1683-cü ildə alman alimi E.Kempfer, 1747-ci ildə ingilis səyyahı Ceyms Kuk, 1842-ci ildə rus alimi İ.Berezin, 1861-ci ildə rəssam Boqolyubov, 1888-ci ildə səyyah K.Skalkovski və digərləri Bakı şəhərində daşdan tikilmiş, günbəzləri olan əzəmətli sarayın olduğunu, sarayın naxışlı divar səthlərinin amansızcasına məhv edildiyini, dağıdıldığını vurğulayırdılar. Hələ XIX əsrin əvvəllərində, Bakı xanlığının rus imperator ordusu tərəfindən işğal edilməsindən sonra sarayın rus hərbi idarəsi tərəfindən səmərəli şəkildə istifadəsi üçün xüsusi layihələr işlənmişdi. 1807-ci ildə Şirvanşahlar Sarayında ilk memarlıq-ölçmə işləri aparılmış, sxem-plan çəkilmişdi. Planda Xan Sarayının Rus Hərbi İntendant İdarəsinə verilməsi üçün yenidən qurulması və dəyişdirilməsi, burada rus imperiyası əsgər alayının, zabitlərin, kilsə xadimlərinin, keşikçilərin yerləşdirilməsi, onlar üçün yataqxana, istirahət, dəftərxana, mətbəx və kilsənin, sursat anbarlarının və s. təşkili də nəzərdə tutulmuşdu.

**Yasir Hacıyev**
**Bakı Humanitar Kollecin müəllimi**

# ŞİRVANŞAHLAR SARAYI – HƏQİQƏTLƏR VƏ ƏFSANƏLƏR MƏKANI

Şirvanşahlar sarayı Azərbaycanın və Yaxın Şərqin unikal memarlıq abidələrindəndir. Saray kompleksinin tikilməsi haqqında müəyyən məlumatların qalması. Sarayın məhz Bakı anfiteatrının zirvəsində tikilməsinin səbəbləri barədə I Xəlilüllahın Şirvanşahlar dövlətinin mərkəzi şəhərinin Bakını elan etməsi və yeni sığınacağın tikintisinin başlanması. Kompleksin vahid memarlıq ideyasından kənarda qalması və onun səbəbləri.

Şirvanşahlar sarayının Divanxanası - onun memarlıq baxımından maraqlı olması. Divanxananın təyinatının müammalı olması. Divanxana ilə bağlı qeyri - müəyyən fikir və mülahizələrin bu gün də öz tam təsdiqini tapmaması. Kitabələr və memar Məhəmməd Əli.

Sarayın əsas binası, binanın iki mərtəbədən ibarət olması. Birinci və ikinci mərtəbələrin quruluşu.

Sarayın sərdabə - türbələr hissəsi. Türbələrin Şirvanşahların ailə üzvlərinə aid olmasını təsdiq edən materialların mövcudluğu.

Şah məscidi, onun forması və memarlıq üslubu haqqında fikirlər. məscid minarəsinin tikintisi. Seyid Yəhya Bakuvi türbəsi. S.Y.Bakuvi bir elm xadimidir. Onun "xəlvəti" təriqətinə mənsub olduğu bildirilir. Bir sıra əsərlərinin olması məlumdur.

Keyqubad məscidi və onun qalıqları haqqında olan məlumatlar. Saray hamamı, onun quruluşu. Hamamın iki böyük binadan - 26 otaqdan ibarət olması öz təsdiqini tapmışdır. Hamamın qızdırma sistemi. Səyyahların kompleks və hamam haqqındakı fikirləri. Kompleksin Şərq portalı. Saray ansamblının sonuncu hissəsidir. "Murad qapısının tikilməsinin tarixi.

Şirvanşahlar sarayının müxtəlif dövrlərdə, farslar, Səfəvilər, türklər və ruslar tərəfindən işğalı və qarət olunması.

Şirvanşahlar kompleksinin yerində A.Nevski kilsəsinin tikilməsi ideyasının boşa çıxması.

Saray ansamblının sovet dövründə istifadəsi. 1964 - cü ildən muzey – qoruq elan edilməsi və dövlətin mühafizəsinə götürülməsi.

**Həcər Alxasova**
**"İçərişəhər" tarixi muzeyi,**
**baş mütəxəssis**

# ƏSRLƏRƏ DAYANAN TARİX, ŞİRVAN ŞAHLARININ ƏZƏMƏTLİ MƏKANI – ŞİRVANŞAHLAR SARAYI

Bakı şəhəri təşəkkül tapdığı ilk dövrlərdə möhtəşəm tarixi tikililərə malik olmuşdur. Bu tipli tikililər hər bir xalqın tarixinin, dövlətçiliyinin nə qədər qədim və dərin köklərə malik olmasının nişanəsidir.

Bakının ən qədim, əvvəllər bütövlükdə qala divarları ilə əhatə olunmuş hissəsi- İçərişəhərdir. Hər bir azərbaycanlının təsəvvüründə İçərişəhər dedikdə onun möhtəşəm, şah əsəri olan "Şirvanşahlar sarayı kompleksi" və şəhərin rəmzi hesab edilən, sirli-sehirli Qız qalası, qala divarları canlanır. Onlar, canlı tarixdi hansı ki, keçmişimizlə əlaqəni saxlamaq üçün ayrılmazlıq körpüsü rolunu oynayır.

Şirvan ərazisində VIII-XVI əsrlərdə Azərbaycanın ən mühüm dövlət qurumlarından biri – paytaxtı Şamaxı şəhərində yerləşən Şirvanşahlar dövləti mövcud olmuşdur. Orta əsrlərin Şərq tarixində bu, ən uzun müddət mövcud olmuş dövlət idi. IX əsrin ikinci yarısında Abbasilər xilafətinin zəifləməsi və mərkəzi hakimiyyətdən uzaqlaşmaq meyllərinin qüvvətlənməsi Xilafətə tabe ölkələrdə bir sıra müstəqil dövlətlərin yaranmasına səbəb oldu. Belə dövlətlərdən biri də Şirvanşahlar dövləti idi.Tarixən məlumdur ki, XV əsrdə Azərbaycan ərazisində böyük qüdrətə malik olan Dərbəndi-şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu kimi üç sülalə hökmranlıq etmiş, XVI əsrdən isə Səfəvilərin hakimiyyəti başlanmışdı. Şirvanşah I İbrahimin hakimiyyətindən başlayaraq bütün XV əsr boyu Şirvan —öz iqtisadi və siyasi çiçəklənmə dövrünü keçirməkdə idi.

Bu dövlətin ərazisi şərqdə Dərbənddən Kür çayı mənsəbinə qədər Xəzər dənizi sahilərindəki ərazilərdən başlayaraq, Şirvan tarixi vilayəti ilə yanaşı, qərbdə bəzən Gəncə şəhərinə qədər

uzanmış, ayrı-ayrı vaxtlarda Şəki və Qarabağı, o cümlədən Beyləqanı da əhatə etmişdir. Paytaxtı Şamaxı olmuşdur.Məzyədi nümayəndəsi Heysam ibn Xalidin rəhbərliyilə 861-ci ildə Şirvan müstəqillik qazanır, Şirvanşahlar dövləti yaradılır və Heysam Şirvanşah tütulu qazanır. Məzyədilər ilk müsəlman Şirvanşahlar sülaləsi idi.

Şamaxını bərk dağıdan zəlzələdən çoxlu adam, o, cümlədən Şirvanşahın ailəsi, onun arvadı İsmət əd-Din, oğlu və vəliəhdi Mənuçöhr, qızı - Əmir Əmiran Ömərin arvadı və digər qızları həlak oldu. Bu fəlakət nəticəsində Axsitandan sonra Şirvanı onun, ehtimal ki, əyalət hakimləri olan qardaşları idarə etməyə başladılar. Ehtimal ki, Şirvanın paytaxtı Şamaxı dağıldıqdan sonra şirvanşah öz iqamətgahını Xəzər dənizində rahat liman, yaxşı möhkəmləndirilmiş, iki cərgə qala divarları ilə dövrələnmiş şəhər müdafiə istehkamları sırasında Qız qalası olan Bakıya köçürmüşdü. Şamaxıda zəlzələ vaxtı I Axsitanın arvadı və uşaqları həlak olduğundan, şirvanşahın özü təqribən 1196/7-ci ildə öldükdə varisi qalmadığı üçün taxta onun qardaşı I Şahənşah ibn III Mənuçöhr çıxdı. Bu şirvanşahın hakimiyyəti dövründə onun adından zərb edilmiş sikkələrdən başqa bir abidə qalmamışdır. Şamaxı rayonundakı Altıağac kəndindən iki dəfinə tapılmışdır: Bir hissəsi Ermitajda saxlanılan birinci dəfinə XII-XIII əsrlərə aid 346 sikkədən və 8 bilərzikdən, yarıdan çox hissəsi Bakıda Azərbaycan Tarixi Muzeyində saxlanılan133 ikinci dəfinə isə 100 sikkədən ibarətdir.

Şirvan şahlarının Şirvanşah 1 Xəlilullahın dövründə (1417-62) Bakıda mühüm tikinti işləri aparıldı. Şirvanşahlar sarayı kompleksi də bu dövrdə tikilmişdir. Bakıda ticarət, sənətkarlıq inkişaf edir, iqtisadi və mədəni həyat yüksəlirdi. 15-ci əsrin 2-ci yarısında Böyük Moskva knyazlığı ilə ticarət daha da genişləndi və diplomatik əlaqələr yaradıldı Xəlilüllah İsgəndərlə müharibəni qurtarıb 1435/6-cı ildə Şirvana qayıtdıqdan sonra Bakıda dinc quruculuq işlərinə başladı. Xəlilüllah sarayın baş binası (onun əsası, ehtimal ki, İbrahim tərəfindən qoyulmuş, tikintisini Xəlilüllah başa çatdırmışdır) türbə, minarəli məscid Seyid Yəhya Bakuvi türbəsi ilə yanaşı, 1436/7-ci ildə saray hamamına bitişən ovdan tikdirmişdir. Qeyd edək ki, 15-ci əsrin əvvəllərindən Şirvanşahlar dövlətinin təqribən 100 il

davam edən müstəqillik və inkişaf dövrü başlanır. 50 ilə yaxın hökmdarlıq etmiş Şirvanşah 1-ci Xəlilullah möhkəm idarəçilik qanunlarına əsaslanan güclü dövlət aparatı, inzibati-amirlik və vergi sistemi yaratmağa müvəffəq olur. Şah ölkəsinin abadlığı və çiçəklənməsi üçün qalalar, qəsrlər, qala divarları, saraylar, karvansaralar, körpülər tikdirir. Qüdrətli Xəlilullah ən mühüm qərarlarını da məhz bu sarayda verirdi. Ömrünün ən xoşbəxt anları da elə bu sarayla bağlıdır. İkimərtəbəli saray binası kompleksin ən qədim tikilisidir. Birinci mərtəbədə 27 otaq, ikinci mərtəbədə 25 otaq yerləşir. Bina öz lakonik forması, daşların düzülüşündəki işıq oynaqlığı, portalının möhtəşəmliyi, birinci və ikinci mərtəbənin pəncərə və mazğallarındakı şəbəkə ilə diqqəti cəlb edir. Bu möhtəşəm sarayın divarları Şirvanşahların şanlı tarixini günümüzə qədər gətirib çıxarıb. Sarayın 1-ci mərtəbəsinə yalnız gözləmə zalı adlanan girişin sağ tərəfindən aşağıya doğru pilləkənlərlə düşmək olur. 27 otaqlı bu mərtəbə şahın qulluqçuları və kənizlərin yaşaması üçün istifadə olunub. şah isə öz ailə üzvlərilə birlikdə ikinci mərtəbədə yaşayib. Əvvəllər sarayın bu hissəsində 25 otaq olsa da, indi onların sayı cəmi 16-dır. Çünki 10 fevral 1828-ci il Türkmənçay müqaviləsindən sonra bütün saray kompleksi rus hərbi qərargahına verildiyindən burada hərbi sursatların saxlanması üçün bir sıra təmir işləri aparılır, divarların araları götürülür və cəmi 16 otaq qalır. Sarayın gözləmə zalı adlanan və sarayın girişində yerləşən 8 guşəli zal isə ilkin görünüşünü olduğu kimi saxlayıb. Zalın divarları arasında olan bir çox yarıqlar diqqətdən yayınmır. Bu yarıqlar vaxtilə birinci mərtəbə ilə ikinci mərtəbə arasında olan əlaqəni təmin edib. Dəftərxananın daş şəbəkələrlə bəzədilmiş pəncərələri Bakı buxtasının gözəl mənzərəsinə açılır. Sarayın digər hissələrində şahın taxt-tac salonu, ziyafət salonu və yaşayış otaqları yerləşir.

799-cu ildən 1538-ci ilədək Şirvanşahlar paytaxtı Şamaxıda yerləşən müstəqil dövlət kimi mövcud olmuşdur. XVI əsrdə Şirvan Səfəvilər dövlətinin tərkibinə daxil edilmiş və XVIII əsrdə bir xanlıq kimi fəaliyyət göstərmişdir. Nəhayət, 1813-cü ildə Şirvan ərazisi Gülüstan müqaviləsinin nəticəsində Rusiya İmperiyasının tərkibinə daxil edilmişdir.

**Nərmin Alıyeva**
**Elmi-Mədəni Mərkəz**
**tarix üzrə elmi işçi**

# ŞİRVANŞAHLAR SARAYI: MƏDƏNİ İRSİMİZİN BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ NÜMUNƏSİ

Abidələr tarixin daş yaddaşıdır. Hər bir daş abidə mənsub olduğu xalqın tarixinin əvəzolunmaz salnaməsidir. Daş yaddaşımızı nə dərəcədə qoruya, gələcək nəsillərə ötürə biliriksə, bir o qədər tariximizin zənginliyinə və dəqiqliyinə zəmanət veririk. Çünki bu abidələr bizə keçmişdən çox şey deyir, sirli qalmış hadisələri açmağa kömək edir. Tarixi irsimizə sahib çıxmaq və onu təhlükələrdən qorumaq bir Azərbaycan vətəndaşı kimi mənəvi haqqımız və vətəndaşlıq borcumuzdur.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizin mədəni dəyərlərinin qorunması və mədəni həyatın inkişafı üçün ölkə daxilində mühüm tədbirlər görülmüş və bu sahədə bir çox beynəlxalq qurumlarla əməkdaşlıq edilməyə başlanılmışdır. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən mədəniyyət sahəsində bu günə qədər bir sıra mühüm qanunvericilik aktları qəbul edilmişdir. Bunlara aşağıdakıları misal göstərmək olar:

– “Azərbaycan Respublikasının Müəllif Hüquqları üzrə Agentliyi haqqında” 10 sentyabr 1993-cü il tarixli qanun;

– “Müəllif hüquqları və qarışıq hüquqlar haqqında” 5 iyun 1996-cı il tarixli qanun;

– “Mədəniyyət haqqında” 6 fevral 1998-ci il tarixli qanun;

– “Tarixi və mədəni abidələrin qorunması haqqında” 10 aprel 1998-ci il tarixli qanun;

– “Turizm haqqında” 4 iyul 1999-cu il tarixli qanun;

– “Şəhərsalmanın əsasları haqqında” 11 iyun 1999-cu il tarixli qanun;

– “Muzeylər haqqında” 24 mart 2000-ci il tarixli qanun və s. [4]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında mədəniyyət məsələlərinin, xüsusilə də, tarixi və mədəni abidələrin qorunmasının hüquqi bazasını təkcə yerli qanunvericilik aktları deyil, həm də beynəlxalq sənədlər təşkil edir. Bu sənədlərdən “Hərbi münaqişələr zamanı mədəni abidələrin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası, “Ümumdünya mədəni irsinin qorunması haqqında” 1970-ci il Paris Konvensiyası, “Mədəni dəyərlərin qeyri-qanuni yolla gətirilməsinin, aparılmasının və mülkiyyət hüququnun verilməsinin qadağan edilməsi və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında” 1970-ci il Paris Konvensiyası, “Oğurlanmış və qeyri-qanuni yolla ölkədən çıxarılmış mədəni dəyərlər haqqında” 1995-ci il Konvensiyası, “Arxeoloji irsin qorunması haqqında” 1992-ci il Avropa Konvensiyasını və digərlərini göstərmək olar.

Hazırda Azərbaycanın mədəni və təbii irsinin qorunması məsələsi YUNESKO ilə əməkdaşlığın əsas istiqamətlərindən biridir. Məlum olduğu kimi, BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyada təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük forumudur.Azərbaycan Respublikası 1992-ci il iyulun 3-də bu təşkilata daxil olmuş və bu təşkilat ilə əməkdaşlığının inkişafı üçün böyük əmək sərf etmişdir.

Beləliklə, milli mədəni və təbii irsimiz bizim tariximizdir. Buna görə də dünya mədəniyyətinə əvəzsiz töhfələr vermiş Azərbaycan xalqının mədəni və təbii irsinin qorunub saxlanılması və beynəlxalq aləmdə lazımınca təqdim edilməsi son dərəcə önəmli əhəmiyyət kəsb edən bir məsələdir. Bu mənada, Şirvanşahlar sarayının və keçmişimizlə bağlı olan digər tarixi abidələrimizin qorunması və gələcək nəsillərə layiqli səviyyədə çatdırılması hər zaman dövlətimizin məqsədyönlü siyasətinin tərkib hissələrindən olmuşdur və bu iş indi də davam etdirilməkdədir.

# Kitabın içindəkilər

**Cəfər Qiyasi** – Divanxana – şirvanşahların saray köşkü ........... 3
**Cəfər Qiyasi** – Şah türbəsinin medalyon kitabələri .................. 7
**Şahin Fərzəliyev** – Bir əsrin üç şirvanşahı haqqında bəzi qeydlər ........................................................................ 10
**Tarix Dostiyev** – İslam dövrü mülki monumental memarlığı Azərbaycanın arxeoloji irsində ................................................ 13
**İdris Əliyev** – Некоторые документы по истории охраны памятников баку ....................................................... 16
**Əli Rəcəbli** – Abbasi canişinləri dönəmində şirvanda sikkə zərbi tarixindən... .................................................................... 18
**Mehmet Rıhtım** – Seyid Yəhya Şirvaninin xanəgahı və türbəsi.............................................................................. 25
**Nərgiz Quliyeva** – Şirvan feodal dövlətinin tarixi iqamətgahı olmuş şirvanşahlar sarayına dair ............................ 29
**Vəfa Quliyeva** – Şirvanşahlar sarayı – Azərbaycan dövlətçiliyinin rəmzi ............................................ 32
**Kamil İbrahimov** – Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji tədqiqatlar tarixindən ................................................ 35
**Rayihə Əmənzadə** – Конструктивные особенности строений дворца ширваншахов ........................................................... 38
**Qafar Cəbiyev** – Orta əsr Şıxməzid xanəgahı ........................ 41
Xeyirbəy Qasımov – Şirvanda memarlığın inkişafina dair (XV-XV əsrlər)....................................................................... 43
**Aytən Səlimova, Sabir Orucov** – Ханский сад в нардаране 46
**Məmmədhüseyn Hüseynov** – Şirvanşahlar sarayı memarlığında kodlaşmış elementlər və "quyu" kultu ....................................... 49
**Samir Məmmədov** – Azərbaycan Şirvanşahlar dövlətində hərb sənətinin bəzi̇ xüsusiyyətləri (IX-XI əsrlər).............................. 53
**Dilavər Əzimli** – Şirvan ərazilərində dini həyat tarixinə dair.. 56
**Fəxrəddin Miralay** – Şirvanşahlar sarayı kompleksinin memarlığında humanizm elementləri ....................................... 59
**Rahibə Əliyeva** – Şirvanşahlar sarayında bərpa və konservasiya işləri............................................................................ 61

**Qənirə Pirquliyeva** – Şirvanşahların bakı sarayı – külliyyat, yoxsa xanəgah?........................................................ 63
**Rəna Rzayeva** – Şirvanşahların bayraqlarına dair araşdırmalar........................................................................ 65
**Sevil Məmmədova** – Şirvanşahların sarayları – orta əsrlərin tarixi reallıqları və onları təsdiqləyən mənbələr ....................... 67
**Səadət Ələkbərova** – Şirvanşahlar sarayı: saray varidatının izi ilə.......................................................................... 70
**Yasir Hacıyev** – Şirvanşahlar sarayı – həqiqətlər və əfsanələr məkanı ...................................................................... 73
**Həcər Alxasova** – Əsrlərə dayanan tarix, şirvan şahlarının əzəmətli məkanı – şirvanşahlar sarayı...................... 74
**Nərmin Alıyeva** – Şirvanşahlar sarayı: Mədəni irsimizin beynəlxalq əhəmiyyətli nümunəsi .................................... 77

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Dizayn:** Zahid Məmmədov
**Texniki redaktor:** Tünzalə Tağıyeva

Çapa imzalanmış 02.10.2015
Şərti çap vərəqi 5 Sifariş № 302
Kağız formatı 60x84 1/16. Tiraj 100

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.